QARABAĞ AZƏRBAYCANDIR!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 024 (6224) 9 fevral 2021-ci il Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Prezidentin köməkçisi: “Bu dağıntılar Ermənistanın əsl mahiyyətini göstərir”

Bax 4



Cəbrayıl və Zəngilana səfərin təşkilində məqsəd Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən törədilmiş vəhşiliyi, vandalizmi diplomatik korpusun və beynəlxalq təşkilatların nümayəndələrinin şəxsən görmələri üçün şərait yaratmaqdır...

# Prezident İlham Əliyev Baş Prokurorluğun yeni inzibati bina kompleksinin açılışında iştirak edib

Bax 2



## Pakistan Azərbaycana təşəkkürünü bildirib

Bax 6



Pakistanın xarici işlər naziri Şah Mahmud Qureyşi Cammu və Kəşmir məsələsində İslamabadın mövqeyini dəstəklədiyi üçün İslam Əməkdaşlıq Təşkilatına (İƏT) təşəkkürünü bildirib. AZƏRTAC xəbər verir ki, pakistanlı nazir bu məsələyə dair İƏT-in siyasi bəyanatını həmin bölgədə insan haqlarının pozulmasının qarşısını almaq və problemin sülh yolu ilə...

## Diplomatik korpusun nümayəndələri Cəbrayıl və Zəngilanda Ermənistanın törətdiyi vəhşilikləri gözləri ilə görüblər



Azərbaycan Prezidenti İlham Əliyevin təlimatına uyğun olaraq səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri fevralın 6-da işğaldan azad olunmuş Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər. AZƏRTAC-ın bölgə müxbiri xəbər...

Bax 5

## Fevralın 20-də Ermənistanda növbəti etiraz aksiyası keçiriləcək



Fevralın 20-də Ermənistanın baş naziri Nikol Paşinyanın istefası tələbi ilə növbəti etiraz aksiyası keçiriləcək. “Report” “Novosti Armeniya”ya istinadən xəbər verir ki, bu barədə Daşnaksütyun Partiyası Ali Şurasının nümayəndəsi, “Vətənin qurtuluşu hərəkatı”nın...

Bax 6

## İrek Zinnurov: Azərbaycanlılar səmimi və qonaqpərvər xalqdır



Azərbaycanlılar səmimi və qonaqpərvər xalqdır. Buna görə də orada olmaq, bu insanlarla ünsiyyət qurmaq mənə xoşdur. AZƏRTAC xəbər verir ki, Rusiya Federasiyası Dövlət Dumasının sabiq deputatı, “Yedinaya Rossiya” siyasi fraksiyasının üzvü, Olimpiya Oyunlarının ikiqat mükafatçısı, dünya və Avropa çempionatı mükafatçısı, su polosu üzrə Rusiyanın Əməkdar idman ustası İrek Zinnurov bu sözləri “Realnoye vremya” internet-nəşrinə...

Bax 7

### Gəlinini doğrayıb, çuvallara yığan qaynata...



Bax 10

### Ermənistanda kütbeyin Paşinyandan ağıllı “lider” tapılmır



Bax 13

### Sahibsiz uşaqlar problemi: necə həll edilə bilər?



Bax 15

# Prezident İlham Əliyev Baş Prokurorluğun yeni inzibati bina kompleksinin açılışında iştirak edib















**Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Baş Prokurorluğunun paytaxtın Binəqədi rayonu ərazisində yeni inzibati bina kompleksinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevə raport verdi.**

Qeyd edək ki, prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi məqsədilə dövlətimizin başçısının 2020-ci il 10 iyun tarixli Sərəncamına əsasən Baş Prokurorluğun yeni strukturu təsdiq edilib, yeni idarə və şöbələr, o cümlədən islahatların tərkib hissəsi kimi, kriminalistika və informatika idarəsi yaradılıb.

Yeni inzibati bina ilə tanışlıq zamanı Prezident İlham Əliyevə məlumat verən Baş prokuror Kamran Əliyev bildirdi ki, dörd korpusdan ibarət kompleksdə Baş Prokurorluğun altı idarəsi və Elm-Tədris Mərkəzi fəaliyyət göstərəcək. Kompleksdəki bütün otaqlar müasir informasiya-kommunikasiya qurğuları ilə təchiz olunub. Yeni inzibati binada yaradılmış müasir şərait prokurorluq orqanları əməkdaşlarının daha səmərəli və məhsuldar fəaliyyətini təmin edəcək. Eyni zamanda, vətəndaş məmnunluğunun təmin olunması işi də yeni kompleksdə müvafiq standartlara və müasir formaya uyğunlaşdırılıb.

Diqqətə çatdırıldı ki, cinayət prosesi iştirakçılarının dindirilməsi üçün müasir tələblərə cavab verən 13 dindirmə otağında zəruri texniki vasitələr qoyulub. Eyni zamanda, cinayət prosessual qanunvericiliyin tələblərinə müvafiq olaraq, tanıyan şəxsin təhlükəsizliyinin təmin edilməsi məqsədilə tanınmanı vizual müşahidəni istisna edən şəraitdə aparmağa imkan verən istintaq otağı yaradılıb. Kriminalistika otağı da ən müasir cihaz və avadanlıqla təmin olunub. İnzibati binada üç iclas zalı və 320 nəfərlik konfrans zalı müxtəlif beynəlxalq tədbirlərin, treninq, seminar, mətbuat konfransları və təqdimatların keçirilməsinə imkan verəcək.



Prezident İlham Əliyev kompleksin inzibati binasında yaradılan və 44 günlük Vətən müharibəsinə həsr edilmiş tarixi-memorial qalereya ilə tanış oldu. Qalereyada Vətən müharibəsi dövründə Ermənistan ordusunun Gəncə, Tərtər, Bərdə şəhərlərində mülki əhaliyə və obyektlərə qarşı törətdiyi terror aktları ilə bağlı prokurorluq tərəfindən istintaq olunan cinayət işləri üzrə əldə edilmiş maddi sübutlar toplanıb.

Dövlətimizin başçısına səyyar kriminalistik laboratoriyaların quraşdırıldığı avtomobillər barədə də məlumat verildi. Bildirildi ki, avtomobillərdə quraşdırılmış batareyaların köməyi ilə mühərriklər işə salınmadan 1,5-2 saat ərzində avtonom rejimdə hadisə yerini, eləcə də istintaq hərəkəti aparılan ərazini işıqlandırmaq mümkündür. Müasir texnika və avadanlıqla təchiz edilən bu cür avtomobillər MDB məkanında yalnız Azərbaycandadır.

Kompleksin ərazisində abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin fəal hüquq siyasətinin əsas məqsədi qanunun aliliyinin təmin olunmasıdır. Prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, infrastrukturunun yaxşılaşdırılması bu istiqamətdə həyata keçirilən islahatların ardıcıllığını nümayiş etdirir.

# Azərbaycanın yeni sosial-iqtisadi inkişafına dair Milli Prioritetlər

## *Bu prioritetlər dərinləşmiş islahatların növbəti 10 ildə də davam etdiriləcəyindən xəbər verir*




**Məlum olduğu kimi, Prezident İlham Əliyev fevralın 2-də Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafının başlıca prioritetlərini müəyyən edən proqram Sərəncamını - "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" imzalayıb. Sərəncamda 5 əsas istiqaməti özündə ehtiva edən prioritetlər növbəti 10 ildə sosial-iqtisadi sahədə geniş islahatların həyata keçirilməsini, əhalinin maddi rifah halının daha da yüksəldilməsini, milli iqtisadiyyatın inkişafının genişləndirilməsi və dayanıqlı iqtisadi inkişafın qorunub saxlanılmasını təmin edəcək. Həmçinin, Sərəncamda azad olunan ərazilərin sosial iqtisadi inkişafı da nəzərdə tutulub ki, bu da öz növbəsində həmin yerlərin inkişafına əvəzsiz töhfələr verəcək.**

Beləliklə, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən edilmiş sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər növbəti on il ərzində Azərbaycanda müşahidə olunan sosial-iqtisadi inkişafı tamamilə yeni, keyfiyyətcə daha yüksək mərhələyə çıxaracaq.

Sözügedən Sərəncamla bağlı millət vəkillərinin sözlərinə görə, bütövlükdə prioritetlər dərinləşmiş islahatların növbəti on ildə də davam etdiriləcəyindən xəbər verir.

### Siyavuş Novruzov: "Regional idarəetmədə yeni mərhələnin başlanğıcı"

Milli Məclisin Regional məsələlər komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Siyavuş Novruzov bildirib ki, Azərbaycanın uğurlu inkişafını təmin edən əsas amillərdən biri bütün sahələrdə davamlı islahatların həyata keçirilməsidir: "2018-ci ildən etibarən yeni mərhələsinə start verilən islahatlar kursu təkcə iqtisadi inkişafın dayanıqlılığını, əhalinin sosial müdafiəsinin gücləndirilməsini təmin etməyib. Bu, eyni zamanda, idarəetmədə səmərəliliyin, çevikliyin artmasına xidmət göstərib. Təsadüfi deyil ki, davamlı olaraq müxtəlif beynəlxalq reytinq təşkilatlarının hesabatlarında Azərbaycanda həyata keçirilən islahatlar və onun nəticələri çox yüksək qiymətləndirilir, ölkəmizin gələcəyi ilə bağlı müsbət proqnozlar verilir".

S.Novruzov onu da vurğulayıb ki, torpaqlarımızın işğaldan azad olunması Azərbaycanın inkişafı üçün yeni perspektivlər açıb: "Ən vacib məsələlərdən biri budur ki, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması Azərbaycanın inkişafında yeni mərhələnin əsasını qoyub, yeni perspektivlər açılıb. Burada işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri aparmaq, yeni infrastrukturların yaradılmasına, sərmayələrin cəlb edilməsinə nail olmaq xüsusi yer tutur. Artıq bu prosesə başlanıb və həyata keçirilən işlər bütövlükdə Azərbaycanda regional inkişafa təkan verəcək. Prezident İlham Əliyevin "İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında" Fərmanından irəli gələn işlərin həyata keçirilməsi isə islahatların məntiqi davamı, zamanın çağırışlarına uyğun regional inkişafın yeni mərhələsinin başlanğıcıdır".

S.Novruzov onu qeyd edib ki, faktdır ki, Prezident İlham Əliyev mütəmadi şəkildə islahatların davamlı olacağını və dərinləşdiriləcəyini bəyan edir, yeni dövrə uyğun layihələrin, proqramların həyata keçiriləcəyinin anonsunu verir: "İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında Fərmanın imzalanması, yeni təyinatın olması da bunu göstərir ki, islahatlar prosesi davamlı xarakter daşıyır, ölkəmiz yeni hədəflərə doğru irəliləyir. Bu sənəd çərçivəsində qarşıdakı dövrdə əsas məqsəd işğaldan azad edilmiş ərazilərin canlanması üçün quruculuq, bərpa və yenidənqurma işlərinin fasiləsiz həyata keçirilməsi, dövlət orqanlarının və digər təşkilatların birgə fəaliyyətinin təşkilidir. Başqa sözlə, indiki mərhələdə işğaldan azad olunmuş rayonlarımızın məqsədyönlü şəkildə yenidən qurulması, tarixi, mədəni irsinin bərpası, sakinlərin rahat yaşayışının təmin olunması prioritet məsələdir. Əlbəttə, bu vəzifədən irəli gələn işlər həm də gələcək hədəflərin reallaşmasına xidmət edir. Beləliklə, yuxarıda söhbət açdığımız Fərman çərçivəsində atılan addımlar yeni regional idarəetmə modelinin yaradılması baxımından əhəmiyyətlidir. Bu, eyni zamanda, regionların sosial-iqtisadi inkişafı ilə bağlı gələcək üçün yeni nümunələrin formalaşmasına imkan verəcək".

### Vüqar Bayramov: "Bütövlükdə prioritetlər dərinləşmiş islahatların növbəti on ildə də davam etdiriləcəyindən xəbər verir"

Millət vəkili, iqtitsadçı Vüqar Bayramov Milli Prioritetlərdən olan Böyük qayıdışın da növbəti on ildə uğurla icra olunacağına əminliyini ifadə edib. Bildirib ki, 5 əsas istiqaməti özündə ehtiva edən on illik Milli Prioritetlər Azərbaycanda müasir çağırışlara və standartlara uyğun olaraq iqtisadi inkişafın davam etdirilməsi, eyni zamanda yeni innovativ iqtisadiyyatın daha da genişləndirilməsini nəzərdə tutur: "Nəzərə alsaq ki, bu prioritetlərdə diqqət çəkən əsas məqamlardan biri iqtisadi inkişafda inkluzivliyin, eyni zamanda innovativ iqtisadi inkişafın daha da genişləndirilməsinə nail olmaqdan ibarətdir. İnkluzivlik həm formalaşan və istifadə olunan dəyərdən cəmiyyətin daha yaxından istifadə etməsi, eyni zamanda dəyərin bir hissəsinin gələcək nəsillərə saxlanmasını nəzərdə tutur. Eləcə də insan kapitalının inkişafı hesabına innovativ iqtisadiyyatın payının artırılması əsas hədəflərdən biridir".

V.Bayramov, onu da vurğulayıb ki, eyni zamanda rəqabət qabiliyyətinin genişləndirilməsi və sahibkarların dəstəklənməsi, sahibkarlar üçün yeni tətbiq mexanizmlərindən istifadə olunması da hədəflər siyahısındadır: "Bu bir tərəfdən daxili bazarda rəqabətin gücləndirilməsinə, yerli istehsalın genişləndirilməsinə, digər tərəfdən Azərbaycanın qeyri-neft ixracatının artmasına gətirib çıxaracaq. Milli iqtisadiyyatın genişləndirilməsi və dayanıqlı iqtisadi inkişafın qorunub saxlanması baxımından vacib hesab olunur".

Millət vəkili sosial təminatla bağlı islahatların, o cümlədən pensiya islahatlarının da davam etdirilməsi, minimum və orta pensiya məbləğinin artırılması nəzərdə tutulduğunu deyib: "Müavinətlər daxil olmaqla sosial ödənişlərə ayrılan vəsaitlərin həcmində də artımlar olacaq. Pensiya islahatları həm də pensiya məbləği ilə sığorta haqqı arasındakı mütənasibliyin artırılmasını nəzərdə tutacaq ki, bu da pensiyaçıların hüquqlarının daha yaxından qorunması və onların daha çox pensiya almasına imkan yaradacaq".

V.Bayramov Milli Prioritetlərdən olan Böyük qayıdışın da növbəti on ildə uğurla icra olunacağına əminliyini bildirib: "Böyük qayıdış da əsas hədəflərdəndir və onun reallaşması mərhələli şəkildə icra olunacaq. Birinci mərhələdə dəymiş ziyanın qiymətləndirilməsi, daha sonra infrastrukturun formalaşdırılması, növbəti mərhələdə sosial obyektlərin inşa edilməsi və məskunlaşmanın reallaşması həyata keçiriləcək ki, bu da nəticə etibari ilə böyük qayıdışın reallaşmasına imkan yaradacaq. Bütövlükdə prioritetlər dərinləşmiş islahatların növbəti on ildə də davam etdiriləcəyindən xəbər verir".

Bir sözlə, növbəti 10 illik Milli Prioritetlər ölkənin sosial-iqtisadi inkişafını yeni, keyfiyyətcə daha yüksək mərhələyə çıxaracaq. Bu baxımdan Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasında, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etdirilməsində aparıcı rolu bundan sonra özünü daha qabarıq formada göstərəcək. Dövlət başçımızın dediyi kimi: "Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir".

**RƏFİQƏ HÜSEYNOVA**

# Rusiya nəşrinin redaktoru Heydər Əliyevin Kamışin şəhərinə səfəri barədə xatirələrini bölüşüb

**Heydər Əliyev şəhərdəki bütün fabriklərə baş çəkdi və demək olar ki, bütün istehsal sahələrini nəzərdən keçirdi. O, sıravi işçilərlə söhbət edir, həm istehsal prosesinə, həm də gündəlik problemlərə maraq göstərirdi. AZƏRTAC xəbər verir ki, "İnfokam" internet portalının redaktoru Leonid Smelov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1987-ci ilin baharında Volqoqrad vilayətinin Kamışin şəhərinə səfərini belə xatırlayır. Jurnalist yazır ki, o vaxt əhalisinin sayı 119 min nəfər olan Kamışin şəhərindəki nəhəng pambıq parça kombinatında 12 min nəfər, yəni şəhər əhalisinin 10 faizi qədər işçi çalışırdı.**



В 1987 году никто даже подумать не мог о том, что спустя четыре года рухнет могучий Советский Союз. Исполнялись очередные задания пятилетки, и промышленные предприятия страны работали в плановом режиме.

**Гейдар Алиевич Алиев с директором Камышинского хлопчато-бумажного комбината Лидией Ивановной Рыбянченко**

На гигантском Камышинском хлопчатобумажном комбинате количество тружеников достигло 12 тысяч человек. То есть здесь работало 10% населения 119-тысячного города (данные о населении за 1987 год). Комбинат трудился в три смены, автобусы с табличками «ХБК» курсировали по городу вереницами. Камышане знали, что во время пересменок лучше было не





L.Smelovun məqaləsində deyilir: "1987-ci ilin baharında Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini Heydər Əliyev Volqoqrad vilayətinə səfər etmişdi. Heydər Əliyev Volqoqraddan sonra Kamışinə gəldi. O, Kamışin pambıq parça kombinatına baş çəkdi. Qonağı kombinatın direktoru Lidiya İvanovna Rıbyançenko qarşıladı. Heydər Əliyev şəhərdəki bütün fabriklərə baş çəkdi və demək olar ki, bütün istehsal sahələrini nəzərdən keçirdi. O, sıravi işçilərlə söhbət edir, həm istehsal prosesinə, həm də gündəlik problemlərə maraq göstərirdi".

Müəllif qeyd edir ki, Heydər Əliyevin Kamışinə həmin səfərindən xatirə kimi qalmış fotoşəkillər Dövlət Kataloqunda saxlanılır. Görüşün iştirakçıları xatırlayırlar ki, Heydər Əliyev və Lidiya Rıbyançenko kombinatın həyatı ilə bağlı bütün məsələləri səmimi müzakirə etdilər. Düşüncə tərzinə və xarakterinə görə sənaye sahəsinə yaxşı bələd olan bu insanlar informasiyanı asanlıqla emal etməyi bacarırdı. L.Smelov xatırladır ki, elə həmin 1987-ci ildə Heydər Əliyev istefa verdi. 1990-cı ildə o, Azərbaycan SSR-ə qayıtdı, 1993-cü ildə isə artıq suveren Azərbaycanın Prezidenti oldu.

## Prezidentin köməkçisi: "Bu dağıntılar Ermənistanın əsl mahiyyətini göstərir"

Cəbrayıl və Zəngilana səfərin təşkilində məqsəd Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən törədilmiş vəhşiliyi, vandalizmi diplomatik korpusun və beynəlxalq təşkilatlar nümayəndələrinin şəxsən görmələri üçün şərait yaratmaqdır.



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev diplomatik korpusun və beynəlxalq təşkilatların nümayəndələrinin Xudafərin körpüsünə səfəri zamanı jurnalistlərə açıqlamasında söyləyib.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistan özünü sivil dövlət adlandırır və sivil siyasət yürütdüyünü söyləyirdi: "Bu dağıntılar isə Ermənistanın əsl mahiyyətini göstərir. Bu işğal siyasəti müstəmləkəçilik siyasəti ilə müqayisə olunacaq bir vəhşilikdir. Hər yer tamamilə dağıdılıb, məhv edilib. Azərbaycan xalqına aid nə var idisə dağıdılıb. Bizimlə bu səfərdə müharibə müxbiri və fotoqrafı kimi dünyanın müxtəlif bölgələrində çalışmış mütəxəssislər də iştirak edirlər. Hətta dünyanın hər hansı başqa münaqişə zonasında qəbiristanlıqların dağıdılması hallarına çox nadir rast gəlinir. Görün bu, vandalizmin hansı dərəcisidir ki, qəbirlər, qəbir daşları, hətta qəbirin içindəki sümüklər belə dağıdılıb. Biz Cəbrayılda bunun bir daha şahidi olduq".

## Pakistan Azərbaycana təşəkkürünü bildirib

**Pakistanın xarici işlər naziri Şah Mahmud Qureyşi Cammu və Kəşmir məsələsində İslamabadın mövqeyini dəstəklədiyi üçün İslam Əməkdaşlıq Təşkilatına (İƏT) təşəkkürünü bildirib. AZƏRTAC xəbər verir ki, pakistanlı nazir bu məsələyə dair İƏT-in siyasi bəyanatını həmin bölgədə insan haqlarının pozulmasının qarşısını almaq və problemin sülh yolu ilə həllinə nail olmaq istiqamətində mühüm addım kimi qiymətləndirib.**

Qureyşi İƏT-in Nyu-Yorkda Cammu və Kəşmir üzrə Kontakt Qrupunun səfirlər səviyyəsində keçirilən iclasına göndərdiyi videomesajda bildirib ki, Hindistan BMT-nin faktaraşdırıcı missiyası və İƏT İnsan Hüquqları Daimi Komissiyasının qətnamələrinə əməl etməlidir.



O, həmçinin İslam ölkələrinin münaqişənin sülh yolu ilə nizama salınmasına verdiyi dəstəyi xüsusi vurğulayıb. Nazir xatırladıb ki, ötən ilin noyabrında Niameydə keçirilmiş İƏT Xarici İşlər Nazirləri Şurasının 47-ci sessiyasında Cammu və Kəşmir probleminin həlli üçün şuraya xüsusi mandat verilib. Pakistanlı nazir Kontakt Qrupunun üzvləri olan Azərbaycan, Niger, Səudiyyə Ərəbistanı və Türkiyəyə Cammu-Kəşmir probleminin həllində göstərdikləri dəstəyə görə təşəkkürünü bildirib.

## "Azərbaycanın Böyük Britaniya ilə siyasi əlaqələri yüksək səviyyədədir"

*Milli Məclisin sədri Sahibə Qafarova Böyük Britaniyanın dövlət naziri xanım Vendi Morton ilə görüşüb*

**Dünən Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Böyük Britaniyanın dövlət naziri xanım Vendi Morton ilə görüşüb. Milli Məclisin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, spiker qonağı salamlayaraq Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biri kimi Böyük Britaniya ilə siyasi əlaqələrimizin yüksək səviyyədə olduğunu bildirib.**



Sədr diqqətə çatdırıb ki, ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin İngiltərəyə səfərləri münasibətlərimizin inkişafına böyük töhfələr verib. Böyük Britaniyanın da yüksəksəviyyəli nümayəndə heyətləri dəfələrlə Azərbaycanda səfərdə olublar. Bu səfərlər zamanı Azərbaycan Respublikası ilə Birləşmiş Krallıq arasında ikitərəfli münasibətlərə dair bir sıra sənədlər imzalanıb. İstərdik ki, parlamentlər səviyyəsində də intensiv qarşılıqlı səfərlər həyata keçirilsin.

Milli Məclisin sədri diqqətə çatdırıb ki, siyasi münasibətlərimizin yüksək səviyyədə olması iqtisadi münasibətlərimizə də öz təsirini göstərib. Bu gün ölkələrimiz neft-qaz sənayesi sahəsində uğurla əməkdaşlıq edir. O cümlədən Britaniyanın BP şirkətinin Azərbaycanda fəaliyyəti geniş ictimaiyyətə yaxşı məlumdur.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Böyük Britaniyanın dövlət naziri Azərbaycana ilk səfəri ilə bağlı təəssüratlarını bölüşüb. Qonaq Azərbaycanda keçirdiyi görüşləri, apardığı müzakirələri yüksək dəyərləndirib.

Vendi Morton Azərbaycanda məişət zorakılığının qarşısının alınması və gender məsələləri ilə bağlı görülən işləri yüksək qiymətləndirərək parlamentin bu sahənin hüquqi bazasının təkmilləşdirilməsində böyük rol oynadığını bildirib. Sahibə Qafarova ölkəmizdə gender məsələlərinə xüsusi diqqət göstərildiyini qeyd edərək bildirib ki, hələ 1918-ci ildə müsəlman Şərqində ilk olaraq Azərbaycanda qadınlara seçki hüququ verilib. Sovet dövründə də bu məsələlər o vaxtkı Konstitusiya ilə tənzimlənib, kişi-qadın bərabərliyi təmin olunub.

Ölkəmiz 1991-ci ildə ikinci dəfə müstəqillik qazandıqdan sonra gender məsələləri ilə yaxından məşğul olmaq üçün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Hazırda Azərbaycanda qadınlar həyatın müxtəlif sahələrində, dövlət idarəetməsində, parlamentdə təmsil olunurlar. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva öz genişmiqyaslı fəaliyyəti ilə Azərbaycan qadınlarını ən yüksək səviyyədə təmsil edir və bu məsələlərə böyük diqqət göstərir.

Spiker qeyd edib ki, Milli Məclisdə də ailə və qadın məsələləri ilə bağlı məşğul olan xüsusi komitə fəaliyyət göstərir. Parlamentdə bu sahəni tənzimləyən bir sıra qanunlar qəbul edilib. Qadın deputatlarımız gender məsələləri ilə bağlı beynəlxalq tədbirlərdə fəal iştirak edirlər.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb. Görüşdə Böyük Britaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Feyziyev, hər iki ölkənin səfirləri Tahir Tağızadə və Ceyms Layl Şarp, həmçinin digər rəsmi şəxslər iştirak ediblər.







# Diplomatik korpusun nümayəndələri Cəbrayıl və Zəngilanda Ermənistanın törətdiyi vəhşilikləri gözləri ilə görüblər

**Azərbaycan Prezidenti İlham Əliyevin tələmatına uyğun olaraq səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri fevralın 6-da işğaldan azad olunmuş Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, səfərin məqsədi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın qədim yurd yerlərində törətdiyi vəhşiliklər və cinayət izləri ilə tanış olmaqdan ibarət idi.**

Diplomatik korpusun nümayəndələrini Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov və digər rəsmi şəxslər müşayiət ediblər.

Səfirlər və hərbi attaşelər əvvəlcə Cocuq Mərcanlıda olublar. Prezidentin köməkçisi Hikmət Hacıyev bildirib ki, 2016-cı ilin Aprel döyüşlərindən sonra Cocuq Mərcanlı ətrafında təhlükəsizlik təmin olunmuşdu. Kənd bundan əvvəl Azərbaycanın nəzarətində olsa da, Lələtəpə yüksəkliyi Ermənistan silahlı qüvvələrinin əlində olduğu üçün burada tikinti-quruculuq işləri aparmaq mümkün deyildi. Hətta diplomatik korpus nümayəndələri 2017-ci ilin fevralında bu kəndə səfər etmiş və tamamilə dağılmış kəndi gözləri ilə görmüşdülər.

"Azərbaycanın işğaldan azad olunmuş digər əraziləri də tamamilə dağıdılıb. Bu gün Cəbrayıl və Zəngilana səfərimiz zamanı həmin dağıntıları yenə də görəcəyik. Lakin gördüyünüz kimi, Cocuq Mərcanlı çox qısa müddətdə, yəni təxminən bir il ərzində yenidən quruldu. Bu, Azərbaycan xalqının Qayıdış əzminin rəmzinə çevrildi. İşğaldan azad olunmuş digər ərazilərimizdə də Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulmuş tapşırıqlara uyğun olaraq ardıcıl, planlı və məqsədyönlü şəkildə böyük quruculuq, tikinti işləri aparılacaq ki, bizim mülki insanlarımız 30 ildən artıqdır həsrətində olduqları doğma torpaqlarına qayıda bilsinlər", - deyə Hikmət Hacıyev bildirib.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsində düşmən atəşinə məruz qalan yaşayış yerlərimizdən biri də Cəbrayılın Cocuq Mərcanlı kəndidir. Ermənistan ordusunun kəndə atdığı raket və mərmilərin dağıtdığı 45 evdə tikinti-bərpa işləri davam edir. Azərbaycanda fəaliyyət göstərən səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri Cocuq Mərcanlı ilə tanışlıqdan sonra Cəbrayıl şəhərinə gəliblər.










Diplomatik korpus nümayəndələri Cəbrayıl şəhərindəki dağıdılmış qəbiristanlığa və erməni vəhşiliyinə məruz qalmış digər ərazilərə baxıblar.

Dünya şöhrətli fotoqraf Reza Deqati Cəbrayıl şəhərində diplomatik korpus nümayəndələrinə işğaldan azad olunmuş ərazilərdə çəkdiyi şəkilləri göstərərək deyib: "Görürsünüz ki, Cəbrayıl şəhəri tamamilə dağıdılıb. Bir dənə də bina salamat qalmayıb. Bəziləriniz artıq Ağdam və Füzulidə olmusunuz. Ağdam demək olar ki, şumlanıb. Ağdam, Füzuli, Zəngilan və Şuşada olduğu kimi, Cəbrayılda da məzarlıqlar dağıdılıb. Siz burada məzardan çıxarılan yüzlərlə insan sümüklərini görürsünüz. Onlar qəbirləri ekskavatorla qazaraq qızıl dişlər axtarıblar. Məzarlıqların bu cür kütləvi şəkildə dağıdılması tarixboyu görünməyib. BMT-yə müraciət edirəm ki, bu məsələyə diqqət yetirsinlər".

Reza Deqati qeyd edib ki, bir müddət öncə Kəlbəcərdə idi və orada minlərlə ağacın kəsildiyini görüb: "Kəsib aparıblar, apara bilmədiklərini isə yandırıb məhv ediblər. Bu, bir ekoloji faciədir".

Cəbrayıl Mədəniyyət Evi ilə tanışlıq zamanı dağıntılar arasında uzun illərdən sonra ilk dəfə musiqi səsləndirilib. Azərbaycanlı musiqiçi dağıntılar arasında skripkada ifa edib. Sonra diplomatik korpus nümayəndələri Xudafərin körpüsünə səfər ediblər.

Daha sonra səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri Zəngilan rayonuna gəliblər.

Zəngilanda erməni barbarlığına şahidlik edən diplomatlar əvvəlcə şəhər məscidinə baxıblar. Ermənistan işğal olunmuş bütün ərazilərimizdəki digər məscidlər kimi bu məscidi də dağıdıb, təhqir edib. Prezidentin köməkçisi Hikmət Hacıyev diplomatlara bu barədə ətraflı məlumat verib.

Sonra Mincivan qəsəbəsinə gələn diplomatik korpusun nümayəndələrinə məlumat verilib ki, vaxtilə buradan Culfa-Horadiz-Sarıcalar-Osmanlı dəmir yolu xətti keçirdi. 1993-cü ildə Zəngilan rayonu Ermənistan tərəfindən işğal edildikdən sonra Mincivan dəmir yolu stansiyası da fəaliyyətini dayandırıb. Sonradan ermənilər tərəfindən tamamilə dağıdılıb.

Diqqətə çatdırılıb ki, ermənipərəst, anti-Azərbaycan, islamofob dairələr mənfur Ermənistanın bizim torpaqlarımızı işğal edərək bütün infrastrukturu və tarixi, dini-mədəni abidələri dağıtmasına göz yumurlar. Cəbrayıl və Zəngilanda bir dənə də olsun salamat bina qalmayıb. Ermənistan rəhbərliyi və onun havadarları uzun illər bunu gizlədirdilər. İşğal zamanı bu bölgələrdə olan beynəlxalq təşkilatların nümayəndələri də həmin faktın üstünü örtürdülər. Əslində isə bu talançılıq, vəhşilik bütün dünyaya çatdırılmalıdır və hazırda bu mənzərə bütün dünyaya təqdim edilir.

Media və diplomatik korpus nümayəndələrinin bu səfərlərində məqsəd də ondan ibarətdir ki, hər kəs erməni barbarlığını görsün. Azərbaycan təkcə öz ərazi bütövlüyünü bərpa etməyib, eyni zamanda, erməni faşizmini məhv edib. Bu baxımdan Azərbaycanın Vətən müharibəsində qazandığı şanlı Qələbə nəinki bölgə üçün, dünya üçün də çox böyük əhəmiyyət daşıyır.

# Heydər Əliyev Fondu 18 yaşadək olan şəkərli diabet xəstələrini insulinlə təmin edir





**Heydər Əliyev Fondunun "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində ölkə üzrə şəkərli diabet xəstəliyi olan 18 yaşadək şəxslər növbəti dəfə insulin preparatları və şpris-qələmlərlə təmin edilirlər. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşan layihə çərçivəsində müvafiq dərman preparatları Azərbaycan Diabet Cəmiyyəti vasitəsilə şəkərli diabet xəstələrinə verilir.**

Əhalinin səhiyyə problemlərinin aradan qaldırılmasında yaxından iştirak edən Heydər Əliyev Fondu 2004-cü ilin dekabrından etibarən "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsini həyata keçirir. Layihə üzrə şəkərli diabetdən əziyyət çəkən şəxslərə dövlət tərəfindən göstərilən qayğıya dəstək məqsədilə uşaq və yeniyetmələr müntəzəm olaraq insulin preparatları və şpris-qələmlərlə təmin edilirlər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Diabet Cəmiyyətinin sədri Mömünət Ömərova bu il dünyada diabet cəmiyyətlərinin insulinin kəşf olunmasının 100 illiyini qeyd edəcəyini bildirib: "İnsulinin 1 əsrdir mövcud olmasına baxmayaraq, dünyada insulinlə təminatın lazımi səviyyədə olduğunu demək mümkün deyil. Bu nöqteyi-nəzərdən ölkəmizdə uşaqların ən keyfiyyətli "Tresiba" insulini ilə təmin olunması çox böyük əhəmiyyət kəsb edir. Beynəlxalq Diabet Federasiyasının devizi "Diabetli insanların həyat keyfiyyətinin" yaxşılaşdırılması"dır. Bu layihə çərçivəsində son bir il ərzində 1500-ə yaxın uşağın həyat keyfiyyəti yaxşılaşdı. "Tresiba" qanda insulinin miqdarının kəskin düşməsini, yəni hipoqlikemiyanın baş verməsinin qarşısını almağa kömək edir. Uşaqların "Tresiba" insulini ilə təminatı Heydər Əliyev Fondunun, onun prezidenti Mehriban Əliyevanın uşaqlara göstərdiyi qayğının bariz nümunəsidir. Bununla yanaşı, layihənin icrası Beynəlxalq Diabet Federasiyasının devizinin həyata keçirilməsi deməkdir. Layihə çərçivəsində insulinlə təminatla yanaşı, həm valideynlər, həm də uşaqlar diabet haqqında, özlərinə necə nəzarət etməli olduqları barədə biliklər əldə etdilər. Bu layihə Heydər Əliyev Fondunun diabetlə bağlı həyata keçirdiyi ilk layihə deyil. Azərbaycanda ilk dəfə uşaqlar insulin üçün şpris qələmlərlə Heydər Əliyev Fondu tərəfindən təmin olunublar. Bütün diabetli uşaqlar, onların valideynləri, Azərbaycan Diabet Cəmiyyətinin adından Heydər Əliyev Fonduna, onun prezidenti Mehriban Əliyevaya dərin minnətdarlığımı bildirirəm".

Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun terapiya kafedrasının müdiri, Azərbaycan Endokrinologiya, Diabetologiya və Terapevtik Təlimat Assosiasiyasının sədri, tibb elmləri doktoru Valeh Mirzəzadə bütün xəstələrin onlarda şəkərli diabet olduğunu bilmədiklərini, lakin uşaqlarda olan şəkərli diabetin daha böyük problem olduğunu qeyd edib: "İnsulin kəşf olunmamışdan əvvəl 10 yaşadək uşaqlarda şəkərli diabet tapılırdısa, onlar bir ildən artıq yaşamırdı. Tətbiq olunan pəhriz isə iki il yaşamaq imkanı yaradırdı. İnsulin kəşf olunandan sonra isə uşaqların yaşama ehtimalı artdı. Dünyada 95 il yaşayan bəzi insanların 85 il insulinlə yaşadığı məlum olub. İnsulin insana fəsadsız və uzun yaşamağa kömək edir. Fəsadsız yaşamaq üçün qanda olan qlükozanın idarə edilməsi də vacibdir. Onu da insulinlə idarə etmək mümkündür. Uşaqlarda kəskin insulin çatışmazlığı yarana bilir. Onlarda qanda insulin ya heç olmur, ya da cüzi miqdarda aşkarlanır. Həmin uşaqların insulinlə təminatı vacibdir. Qısamüddətli və uzunmüddətli insulin mövcuddur. Qısamüddətli insulin yeməklər üçün istifadə olunur, uzunmüddətli isə bütün sutka boyu qanda insulinin yetəri səviyyədə olmasına kömək edir. Heydər Əliyev Fondu imkan yaradıb ki, ölkəmizdə şəkərli diabetdən əziyyət çəkən uşaqları ən yeni və ciddi yoxlamadan keçən uzunmüddətli insulinlə təmin olunsunlar. Həmin insulinlər sutka və gecə ərzində hipoqlikemik vəziyyətlərin başvermə ehtimalını azaldır. Qeyd edim ki, qanda qlükozanın miqdarının kəskin düşməsi ölümlə və ağır fəsadlarla nəticələnə bilər. Belə halların baş verməsinin qarşısını almaq üçün uşaqların yeni uzunmüddətli insulinlə təminatına görə Heydər Əliyev Fonduna minnətdarlığımızı bildiririk".

# Bahar Muradova: "Azərbaycanda qadın və uşaqların müdafiəsi daim diqqət mərkəzindədir"



"Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaranmasından 15 il ötür. Komitə hər zaman qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışıb. Azərbaycanda ailə dəyərlərinin qorunub saxlanılması, qadın və uşaqların müdafiəsi daim diqqət mərkəzində saxlanılıb. Azərbaycan Respublikası beynəlxalq konvensiyalardan irəli gələn və üzərinə düşən öhdəliklərlə yanaşı, malik olduğu milli dəyərlər üzərində qurulan siyasəti ardıcıl olaraq həyata keçirir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də öz növbəsində vətəndaşların, xüsusilə, həssas təbəqəyə aid olan qrupların problemlərinin həllinə, cəmiyyətimizdə ailə dəyərlərinin inkişafına, onun təbliğinə, bu dəyərlərin gənc nəslə aşılanmasına, onların sağlam, vətənpərvər, təfəkkürlü, intellektual gəncliyin inkişafına töhfəsini verir və verməkdədir". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova deyib.

Bahar Muradova bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev qarşımızda mühüm vəzifələr qoyub. Pandemiya və Vətən müharibəsi dövründə Komitəmiz meydana çıxan çətinliklərin aradan qaldırılması işində önəmli addımlar atıb. Komitə olaraq 44 günlük Vətən müharibəsi dövründə zərərçəkmiş ailələrin ehtiyaclarının müəyyən edilməsi məqsədilə psixososial qiymətləndirmə aparmışıq. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi səlahiyyətləri çərçivəsində üzərinə düşən vəzifənin öhdəsindən gəlməyə çalışır. Hazırda ölkəmizdə işğaldan azad olunan ərazilərin bərpası işlərinə start verilib. Bu proses hər birimizin üzərinə düşən məsuliyyəti daha da artırır.

Ölkəmizdə qadın və uşaqların problemlərinin həlli istiqamətində görülən işlərdən bəhs edən Bahar Muradova qeyd edib ki, Azərbaycan dövləti cəmiyyətimizdə kişilər və qadınlar üçün bərabər imkanların yaradılması məsələsini hər zaman diqqət mərkəzində saxlayıb. Qadınların öz şəxsi hədəflərinə çatması və iqtisadi imkanlardan yararlanması işinə töhfə verən Qadın Resurs Mərkəzlərinin əhəmiyyətindən bəhs edən komitə sədri regionlarda bu mərkəzlərin sayının artırılmasının nəzərdə tutulduğunu söyləyərək deyib: "Qarşıda görüləcək işlər çoxdur. Ən əsas işimiz təbii ki, qadınların ailələrdə həm maddi və həm də mənəvi cəhətdən güclü olmasını təmin etməkdir".

# Azərbaycanda aktiv vergi ödəyicilərinin sayı 24%-dən çox artıb



2020-ci il ərzində Azərbaycanda aktiv vergi ödəyicilərinin sayı 24%-dən çox artaraq 616 mini ötüb. Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov "Twitter" hesabında yazıb. Nazir əlavə edib ki, aktiv ƏDV ödəyicilərinin sayında 17%-dən çox artım olub.

# Britaniyalı nazir: Gözəl Bakının İçərişəhərində oldum



Bakıda səfərdə olan Böyük Britaniyanın Avropa Qonşuluğu üzrə dövlət naziri Vendi Morton İçərişəhəri ziyarət edib. Bu barədə nazir öz "Twitter" səhifəsində paylaşım edib. O, Ənənəvi İncəsənət üzrə Şahzadə Məktəbində olduğunu bildirib: "Gözəl Bakının İçərişəhərində oldum. Azərbaycan zəngin mədəni irsə malikdir. Mən gənc rəssamları dəstəkləyən və Azərbaycanın qədim mədəniyyətini qoruyub saxlayan Ənənəvi İncəsənət üzrə Şahzadə Məktəbində gözəl vaxt keçirdim".

# Fevralın 20-də Ermənistanda növbəti etiraz aksiyası keçiriləcək



Fevralın 20-də Ermənistanın baş naziri Nikol Paşinyanın istefası tələbi ilə növbəti etiraz aksiyası keçiriləcək. "Report" "Novosti Armeniya"ya istinadən xəbər verir ki, bu barədə Daşnaksütyun Partiyası Ali Şurasının nümayəndəsi, "Vətənin qurtuluşu hərəkatı"nın əlaqələndiricisi İşxan Saqatelyan feysbuk səhifəsində yazıb. Onun sözlərinə görə, mitinq yerli vaxtla saat 15:00-da paytaxt Yerevanın Azadlıq meydanında başlayacaq.

İ.Saqatelyan N.Paşinyan seçkilər yolu ilə vəzifə kreslosunu xilas edə bilməyəcək: "Onun komandasında ciddi problemlər olacaq".

# Sosial siyasətin başlıca hədəfi əhalinin rifahının təminatıdır

**2020-ci il ölkəmiz üçün çətin və mürəkkəb bir il olsa da, qələbə tariximizin yazıldığı zaman olaraq tarixiləşdi. Vətən müharibəsi, koronavirus pandemiyası ilə mübarizə. İki cəbhədə gedən mübarizədə Azərbaycan öz iradəsini, gücünü, həmrəyliyini ortay qoyaraq nəyə qadir olduğunu sübut etdi.**



Bu gün Azərbaycan işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə start verərək, yeni dirçəliş dövrünü yaşayır. Koronavirus pandemiyası ilə mübarizə istiqamətində ardıcıl olaraq davamlı tədbirlər həyata keçirilir. Belə bir zamanda Azərbaycan dövləti əhalinin sosial rifahının və onun daim yüksələn xətt üzrə inkişafına nail olunmasını diqqətdə saxlayır. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Təbii ki, bütün bunlar planlı, Azərbaycan dövlətinin sosial iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, aztəminatlı ailələrin, müharibə veteranlarının, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb. Məlumdur ki, hər bir zaman öz vətəndaşının yanında olan dövlət başçısının Sərəncamı ilə 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhalinin əmlakına dəymiş ziyanla bağlı tədbirlər həyata keçirildi. Belə ki, dağıdılmış və ya qəzalı vəziyyətə düşmüş yaşayış evləri üzrə məişət əşyalarına dəymiş ziyanla bağlı hər bir ailəyə 6000 (altı min) manat, şəxsi əşyalara dəymiş ziyanla bağlı hər bir ailə üzvünə 1500 (min beş yüz) manat məbləğində, digər ziyan dəymiş yaşayış evləri üzrə hər bir ailəyə 1000 (bir min) manat məbləğində vəsaitlərin ödənilməsi təmin edildi. Dövlət başçısının "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlillik müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı və digər rəsmi sənədlər Prezident Cənab İlham Əliyevin güclü sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir.

Həyata keçirilən davamlı tədbirlər nəticəsində şəhid ailələrinə, müharibə və 1990-cı ilin 20 Yanvar hadisələri iləəlaqədar əlilliyi olan şəxslərə, Milli Qəhrəmanlara, İkinci Dünya müharibəsi iştirakçılarına dövlətimiz tərəfindən qayğı və diqqət davamlıdır. Prezidentin təqaüdlərinin məbləği şəhid ailələri üçün 66,7%, Azərbaycanın Milli Qəhrəmanı üçün 20%, İkinci Dünya müharibəsi iştirakçıları üçün 100%, müharibə və 20 Yanvar əlilləri, müharibə əlillərinə bərabər tutulanlar üçün 50%-dən çox artırılması fikirlərimizi əsaslandırır. Vətən Müharibəsi Qəhrəmanları üçün Prezidentin aylıq təqaüdü isə 2000 manat təsis olundu.

Prezident İlham Əliyevin "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" 5 fevral 2021-ci il tarixli Sərəncamı ölkədə sosial müdafiə tədbirlərinin gücləndirilməsi, pensiyaçıların rifahının yaxşılaşdırılması istiqamətində növbəti addım oldu. Sərəncama əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 2021-ci il 1 yanvar tarixinə 2020-ci il üzrə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin müəyyən etdiyi orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 2021-ci il 1 yanvar tarixinədək təyin edilmiş bütün növ əmək pensiyalarının sığorta hissəsinin və istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində 2021-ci il 1 yanvar tarixinədək qeydə alınmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsini həyata keçirmək tapşırılıb. Qeyd edək ki, 2020-ci il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq pensiyalar indeksləşdirilərək 11,4% artırılır. Pensiyaların növbəti artımı ümumilikdə 1 milyon 140 min pensiyaçını və ya pensiyaçıların 93%-ni əhatə edir. Digər pensiyaçılar isə xüsusi şərtlər əsasında pensiya təyin olunmuş şəxslərdir.

Ölkədə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində göründüyü kimi, əhalinin, onun müxtəlif, o cümlədən aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP-ın Siyasət Akademiyasının videokonfrans formatında növbəti kursu keçirilib

**YAP-ın Siyasət Akademiyasının "Azərbaycan Respublikasının gender bərabərliyi siyasəti" mövzusunda videokonfrans formatında növbəti kursu keçirilib. SİA-nın verdiyi məlumata görə, kursun rəhbəri, Milli Məclisin deputatı, siyasi elmlər doktoru Elman Nəsirov tədbir iştirakçılarını salamlayaraq, ölkəmizdə gender siyasətinin müasir dövrün tələblərinə uyğun həyata keçirilməsi, respublikamızda kişi və qadın bərarbərliyinin təmini, gender balansının qorunması istiqamətində görülən işlərdən bəhs edib.**




Mövzu ilə bağlı geniş məruzə ilə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova öz nitqində bildirib ki, Azərbaycanda ailə institutunun tarixi çox qədimdir və milli-mənəvi dəyərlərə bağlı olan sosial bir qurum kimi müasirliyə də hər zaman açıq olub. Ailə cəmiyyətin sosial əsasıdır. Ailənin cəmiyyət və dövlət həyatında özünəməxsus yeri və rolu var. Ailədə həm adət-ənənə, həm idarəçilik, həm birgə təsərrüfat vərdişləri aşılanır. Eyni zamanda, bunların hamısı sosial-psixoloji təminatlara bağlıdır. Bu təminatların mövcudluğu obyektiv və subyektiv səbəblərə bağlıdır və iqtisadi vəziyyətin təsiri burada daha çox hiss olunur.

Komitə sədrinin sözlərinə görə, Azərbaycanda gender siyasətinin müasir dövrün tələblərinə uyğun həyata keçirilməsinin hüquqi əsasını məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa rəhbərliyi altında 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycanın Konstitusiyası təşkil edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən aparılan uğurlu siyasətin nəticəsi olaraq bu gün ailə, qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində əsaslı nailiyyətlər əldə olunmuşdur. Xüsusilə də bu sahədə bir sıra mühüm qanunlar qəbul edilmiş və davamlı islahatlar həyata keçirilmişdir. Nəticədə ölkədə qadın və uşaq hüquqları daha da inkişaf etdirilmiş, bu sahələrdə əhalinin məlumatlılıq səviyyəsi artırılmış, erkən nikahların sayı azalmışdır.

Xüsusi vurğulanıb ki, ailə institutunun möhkəmləndirilməsi məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi digər aidiyyəti qurumlarla birlikdə milli-mənəvi dəyərlərin əhali arasında düzgün təbliği, qadın və uşaq hüquqları sahəsində maarifləndirmənin zəruriliyi, gənc nəslin milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirir. Lakin bütün bunların fonunda ailə institutuna təsir göstərən bir sıra mənfi hallar həm cəmiyyətimiz, həm də dövlətimiz üçün aktual olaraq qalmaqdadır. Bütün dünyada olduğu kimi, son illər nikahların azalması, boşanmaların artması, məişət zorakılığı zəminində xüsusi amansızlıqla qətl hadisələrinin baş verməsi, doğulan uşaqların sayının, ümumnəsilvermə əmsalının aşağı düşməsi, o cümlədən, doğulan uşaqlar arasında cins nisbətinin pozulması ailədaxili münasibətlərin tənzimlənməsi sahəsində bir sıra boşluqların olmasını sübut edir. Bu tendensiyanın davam etməsi gələcəkdə bir sıra demoqrafik problemlərin, eyni zamanda, genefonda mənfi təsirlərin və daha ağır fəsadların yaranmasına səbəb ola bilər. Daha sonra kurs iştirakçılarının sualları cavablandırılıb.

***Ceyhun Rasimoğlu***

# İrek Zinnurov: Azərbaycanlılar səmimi və qonaqpərvər xalqdır



Azərbaycanlılar səmimi və qonaqpərvər xalqdır. Buna görə də orada olmaq, bu insanlarla ünsiyyət qurmaq mənə xoşdur. AZƏRTAC xəbər verir ki, Rusiya Federasiyası Dövlət Dumasının sabiq deputatı, "Yedinaya Rossiya" siyasi fraksiyasının üzvü, Olimpiya Oyunlarının ikiqat mükafatçısı, dünya və Avropa çempionatı mükafatçısı, su polosu üzrə Rusiyanın Əməkdar idman ustası İrek Zinnurov bu sözləri "Realnoye vremya" internet-nəşrinə müsahibəsində söyləyib.

Bu yaxınlarda "Rossotrudniçestvo" agentliyinin Azərbaycandakı nümayəndəliyinin - Bakıdakı Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin (RİMM) rəhbəri təyin edilmiş siyasətçi Bakıda çoxlu dostunun olduğunu qeyd edərək deyib: "Onların hamısı qonaq çağırmağa, kömək etməyə, dəstəkləməyə, plova dəvət etməyə hazırdırlar. Bu baxımdan, orada olmaq mənə çox rahatdır, tanıdığım hər kəs (hətta tanımadıqlarım belə) dərhal münasibətlərini bildirdilər. Onların hamısı hər an köməyə gəlməyə hazır idilər. Bu, çox ürəkaçandır".

İ.Zinnurov Dövlət Dumasında MDB məsələləri, Avrasiyaya inteqrasiya və həmvətənlərlə əlaqələr üzrə komitədə işlədiyini xatırladıb. Sabiq deputat deyib: "Mən orada o cümlədən Azərbaycanda görülən işlərə görə cavabdeh idim. Bu, mənim işimin böyük bir hissəsi idi, fəaliyyətimdə çox şey bu ölkə ilə bağlı idi".

İ.Zinnurovun vurğuladığı kimi, onun rəhbərlik etdiyi təşkilatın əsas vəzifəsi Rusiya Federasiya ilə Azərbaycan arasında müxtəlif sahələrdə qarşılıqlı münasibətlərin inkişafı idi. "Buraya mədəniyyət, təhsil, gənclər, idman, biznesin humanitar müşayiəti, elm məsələləri daxil idi. Bir çox istiqamətlər var ki, biz həmin sahələr üzrə fəaliyyət göstəririk", - deyə o qeyd edib.

İ.Zinnurov daha sonra deyib: "Bir də Azərbaycanda bizim xeyli həmvətənimiz yaşayır, orada güclü diasporlar var. Biz birbaşa olaraq, onlarla işləyir, onları dəstəkləyirik. Onlar öz tədbirlərini keçirmək üçün bizim məkanlardan pulsuz istifadə edə bilərlər. Məsələn, Azərbaycan Rus Gəncləri Assosiasiyası tarixi İçərişəhərdə, Qız qalasının yanında möhtəşəm tədbir - Maslenitsa keçirəcəklər. Biz onlarla danışmışıq ki, tədbirin keçirilməsinə yardımçı olacağıq".

"Rossotrudniçestvo"nun Azərbaycandakı nümayəndəliyinin yeni rəhbəri cari ilə olan planlardan danışdı. Onun sözlərinə görə, nümayəndəlik respublikada rus dilini inkişaf etdirmək, rus dili üzrə olimpiadaların keçirilməsini dəstəkləmək niyyətindədir. İ.Zinnurov deyib: "Məsələn, biz Nizaminin yaradıcılığı üzrə belə olimpiada keçirəcəyik. 2021-ci il Azərbaycanda Nizami İli elan olunub və biz məktəblərdə rus dili olimpiadasını bu mövzuya həsr etmək istəyirik. Biz rus dili müəllimlərinin ixtisas səviyyəsinin artırılması ilə də məşğuluq. Təhsil proqramı çərçivəsində uşaqlar üçün ödənişli rus dili kursları təşkil edirik. Rusdilli jurnalistlər assosiasiyası qeydiyyatdan keçir. Bir də Azərbaycan gəncləri üçün iki proqram həyata keçiririk. Bu proqramlara əsasən, onlar bir neçə günlüyə Rusiyaya gələ, ölkə ilə tanış ola bilərlər. Beynəlxalq idman əməkdaşlığı xətti üzrə də işləyirik. Məsələn, Ümumdünya Gənc Həmvətənlərin Oyunlarını biz təşkil edirik. Mən əvvəllər bu Oyunlarda baş hakim idim, artıq indi onlarla başqa statusda işləyəcəyəm. Komandaları indi toplayırıq, Azərbaycanın daxilində seçmə yarışlar aparacağıq. Bütövlükdə iş çoxdur və bu işlər müxtəlif sahələri əhatə edir".

İ.Zinnurov qeyd edib ki, Azərbaycanda ruslara səmimi münasibət göstərilir. "Rossotrudniçestvo"nun rəhbəri deyib: "İndi onlar Qarabağ məsələsi üzrə üçtərəfli Bəyanatın imzalanmasında Rusiyanın iştirakını xüsusi vurğulayırlar. Həm də başa düşürlər ki, biz qonşular dost olmalıyıq və bundan sonra da birgə inkişaf etməliyik. Mətbuatda ab-hava kifayət qədər xoşniyyətlidir, diqqət ona cəmlənir ki, bizim dövlətlərin liderləri arasında çox yaxşı münasibət mövcuddur. Buna görə də mənim vəzifəm bu münasibətləri bütün istiqamətlərdə inkişaf etdirməkdən ibarətdir".

# Xəyanət “yuvası” - AXCP-”Milli Şura”-”beşinci kalon”...

## Azərbaycan cəmiyyəti bu kimi zərərli tendensiyalara çoxdan yox deyib!

**Azərbaycan dünyada böyük etimad qazanan ölkə, etibarlı tərəfdaş və nüfuzlu dövlət kimi tanındıqca müxalif adlanan şər-böhtan yuvasında da əsəblər tarıma çəkilir, antimilli şuranın üzdəniraq sədri Cəmil Həsənli, AXCP sədri Əli Kərimli, hələ də siyasi mənsubiyyəti bilinməyən Tofiq Yaqublu, ailə münaqişələrin “ulduzu” Fuad Qəhrəmanlı və onların yandaşları tərəfindən Azərbaycan Prezidentinin rəhbərliyi altında qazanılan Qələbəyə kölgə salmağa uğursuz cəhdlər getdikcə artır. Bəli, qanları bahasına torpaqlarımızı Vətən edən igid oğullarımız 44 gün ərzində haqq yolunda olduğumuzu sübut etdilər.**

Bütövlüyümüzü bərpa etdik, öz dədə-baba torpaqlarımızı murdarlıqdan, insan cildində olan vəhşi ermənilərdən xilas etdik. Dəmir yumruğumuzla başlarına elə bir yumruq vurduq ki, bellərini sındırdıq, iti qovan kimi qovduq və sübut etdik ki, Qalib Azərbaycan Sərkərdəsi İlham Əliyevin rəhbərliyi ilə güclü ordumuzun, rəşadətli əsgər və zabitlərimizin, xalqımızın birliyi qarşısında paşinyanların sonu ancaq və ancaq it kimi qaçmaq olacaq! Ali Baş Komandanımız İlham Əliyevin dediyi kimi: “Bizim əsgərlərimiz xilaskar əsgərlərdir, erməni əsgərləri işğalçı əsgərlərdir”.



### Əli Kərimlinin təxribat yuvası...

Qurd dumanlı gün axtaran kimi “Milli Şura”nın dağınıq töküntüləri, Əli Kərimli əksinə, Aprel döyüşlərinin davamı kimi zəfər tariximizə yazılan iyul döyüşlərindən mənfur niyyətləri naminə istifadə etdilər. Vətənə məhəbbətlərini, Milli Ordumuzla, Prezident, Ali Baş Komandan İlham Əliyevlə birlik və həmrəyliklərini xoşməramlı yürüşləri ilə bildirən sağlam ruhlu gənclərin keçirdikləri aksiyadan istifadə edərək yenə də antimilli niyyətlərinə sadiq qaldılar. 44 günlük Vətən Müharibəsində girdilər, o üfunət iyi verən yerlərinə. Qulaqlarınız səksəkədə idi. İndi böyük Qələbə əldə edildikdən və Qələbənin şirinliyini yaşadığı bir vaxtda tısbağa kimi başlarınızı o ufunət yerlərinizdən çıxararaq əldə olunan uğurlara bir “quş qoymaq” istəyirsiniz? Uğurlarımıza kölgə salmağa cəhd edən Əli Kərimlinin təxribat yuvası - “Milli Şura”, “beşinci kolon”, AXCP Vətən müharibəsi dövründə harada gizlənmişdiniz? Anti-milli şuraçı Gültəkin Hacıbəyli, nə qədər rəzil qadınsan ki, Qələbəni qeyd edən insanları “trol” adlandırdın, təhqir etdin. Çünki sən erməni yalağısan.

Və “sapı özümüzdən olan baltalar”, xarici antimilli güclərin “beşinci kolonu” qismində çıxış edən dar düşüncəli, qara təfəkkürlü ünsürlər də ölkəmizə qarşı aparılan qarayaxma kampaniyasında iştirak edir, dövlətimizin və xalqımızın milli maraqlarına qarşı çıxırlar. Bir də “beşinci kalon” Azərbaycanda yeni hadisə deyil. Müəyyən sükunətdən və konspirasiyadan sonra üzə çıxmaq, açıq fəaliyyətə keçmək tapşırıqları alan satqınlar, yeri-yurdu olmayan, Avropanın zibilliklərində eşələnə, Azərbaycanın uğurlarından qurd basan xainlər, satqınlar, əxlaqsızlardır.

Fransada “Azərbaycan saatı” adı altında dağıdıcı və satqın müxalifətin xəyanətkar siyasətini yürüdən Qənimət Zahidin daha öncələr də erməni lobbisinin pulları hesabına təlimatlandırılması barədə kifayət qədər faktlar, sübutlar, necə deyərlər, “N” qədərdir. Və onun “bizim işimiz hökuməti şərləməkdir”,- deməsindən sonra o faktları ortaya atmağa lüzum yoxdur. Çünki xalq bütün faktlar barədə məlumatlıdır və “Milli Şura”-AXCP” qeybətxana şousunda göstərilən seriyalar da çox şeyləri ifşa etdi.

Həmin şou seriyaların birində “Milli Şura”nın Koordinasiya Mərkəzinin və AXCP Rəyasət Heyətinin üzvü Vahid Məhərrəmli deyir ki, bekarçılıqdı, tema da yoxdu, gəlin biz hökumətdən karantinə görə bu dəfə 500 manat tələb edək, nəyə görə tələb edək, bilirik onsuz verməyəcəklər, amma biz bunu görüntü üçün də olsa ona görə deməliyik ki, xalq da görməlidir ki, biz bu xalqın qayğısını çəkirik, qeydinə qalırıq. Qənimət Zahidov isə etiraf edir ki, “onların işi hökuməti şərləməkdir”. Bax, budur onların kimliyi, siması. Xalq hər şeyi görür və bilir.

Ən maraqlısı isə, 44 günlük Qələbədən sonra hər gün sosial şəbəkələrdə Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı, Qənimət Zahid, Leyla Yunus, Vidadi İskəndərli, Arif Məmmədov və kimi digər erməni iyi verən satqınlar xalqın gənc üzvlərinə 30 il bundan qabaq baş vermiş hadisələrin mahiyyəti ilə bağlı yalanlar söyləməklə onları çaşdırmaq istəyirlər. Nədir dərdiniz? Nə qədər alışıb-yansanız, canfəşanlıq etsəniz də sonda elə yana-yana qalacaqsınız. Çünki Azərbaycan cəmiyyəti AXCP-”Milli Şura”-”beşinci kalon” kimi mayası xəyanətdən yoğrulmuş zərərli tendensiyalara çoxdan yox deyib!.

*Rəfiqə HÜSEYNOVA*

# Fransalı ekspert: “Azərbaycanın işğaldan azad edilmiş torpaqlarına sərmayə qoymaq istəyən ölkələr çox olacaq”

**“Azərbaycanın işğaldan azad olunmuş əraziləri regionun inkişafına böyük töhfə verəcək”. Bunu “Report”un yerli bürosuna Fransanın Avropada Perspektiv və Təhlükəsizlik İnstitutunun prezidenti Emmanuel Dupuy Azərbaycanın işğaldan azad olunmuş torpaqlarının regionun inkişafındakı rolunu şərh edərkən bildirib.**




O, Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında başlamış yenidənqurma işlərinə sərmayə qoymaq maraqlı olan ölkələrin çox olacağını bildirib: “Azərbaycanın işğaldan azad edilmiş torpaqlarının regionun iqtisadi inkişafında böyük rolu olacaq. Bu inkişafdan təkcə Azərbaycan deyil, regionun digər dövlətləri, habelə sərmayə qoyan və yenidənqurmada iştirak edən ölkələr də yararlanacaq. Bu mərhələdə üç seçim real görünür. İlk növbədə, Türkiyə və İsrail şirkətləri əsas sərmayə yatıran şirkətlər ola bilərlər. Daha bir mümkün seçim birinciyə zidd yox, əlavə xarakter daşıyır. Bu da Çin şirkətləridir. Çin sərmayəsi Gürcüstan və Azərbaycanı birləşdirən layihələrin reallaşması baxımından da böyük maraq kəsb edir. Bu layihələrə bu vaxtadək kənarda qalan Ermənistan da cəlb edilə bilər. Üçüncüsü isə İrandan gələn sərmayədir. Belə ki, İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifin Naxçıvana səfəri Türkiyə-İran-Əfqanıstanı birləşdirəcək dəmir yoluna qoşulmaqda İranın nə dərəcədə maraqlı olduğunu nümayiş etdirdi. Bütün bu layihələr Qafqazın iqtisadiyyatına müsbət təsir göstərəcək və beləliklə, İran üçün də çox böyük faydası olacaq. Nəhayət, sonuncu yerdə dünyanın digər dövlətləri durur ki, bu qrupa da Fransanı, ümumilikdə Avropanı və Amerika Birləşmiş Ştatlarını daxil etmək olar.

E.Dupuy Azərbaycan ərazilərinin işğaldan azad edilməsinin Qafqazın birləşməsi imkanlarını gücləndirdiyini və onun Avropa ilə Asiya arasındakı oynadığı körpü rolunun əhəmiyyətini daha da artırdığını vurğulayıb: “Dağlıq Qarabağın işğaldan azad edilməsindən sonra artıq geriyə yol yoxdur. Bugünkü durum böyük perspektivlər vəd edir. Xüsusilə Qafqazdan keçərək Avropa ilə Asiyanı birləşdirən yolların çəkilməsi qarşıda gələn ən əsas layihələrdəndir. Regionun ehtiyaclarını nəzərə alıb Qafqaz, yaxud Cənubi Qafqaz birliyi yaradaraq birlikdə yenidənqurma işləri aparmaq üçün bu gün tarixi vaxt yetişib”.

# Dünya şöhrətli fotoqraf Reza Deqati AZƏRTAC-da olub

**Fevralın 8-də dünya şöhrətli fotoqraf Reza Deqati AZƏRTAC-da olub. AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov ilə görüşdə 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, informasiya sahəsində görülən işlər və gələcəkdə reallaşdırıla biləcək layihələr barədə fikir mübadiləsi aparılıb.**



Söhbət zamanı bildirilib ki, müharibə günlərində Azərbaycanın dinc əhalisinə qarşı törədilən cinayətlər geniş auditoriyaya əsasən fotolar vasitəsilə çatdırılıb. “Bu fotofaktlar Azərbaycanın haqlı mövqedə olduğunu göstərməklə yanaşı, düşmənin silahsız insanlara qarşı vuruşduğunu sübut etdi. Eyni zamanda, sizin mətbuatda çıxışlarınız və obyektiv baxışlarınız reallıqları tanıtmaq baxımından böyük töhfədir”, - deyə İdarə Heyətinin sədri vurğulayıb.

Müharibə başlayan gündən Azərbaycanda olduğunu qeyd edən Reza Deqati deyib: “Mən bütün layihələrimi kənara qoyaraq Azərbaycana gəldim. Çünki belə bir dövrdə mütləq burada olmalı idim. Azad olunmuş bir çox ərazilərə səfər etmişəm. İstəyim odur ki, hər bir şəhəri və kəndi qarış-qarış gəzərək oradakı dağıntıları sənədləşdirim, sərgilər, albomlar və filmlər vasitəsilə dünyaya çatdırım. Bu həm də gələcək nəsillər üçün bir salnamə olacaq”, - deyə fotoqraf bildirib.

Reza Deqati Azərbaycan əsgərlərinin şücaətinə, mərdliyinə və qorxmazlığına heyran olduğunu vurğulayıb. O, Kəlbəcərə səfəri zamanı şahidi olduğu maraqlı bir epizodu danışıb: “Kəlbəcərdə olarkən bir əsgərin sözləri məni çox kövrəltdi. Bilirsiniz ki, orada erməni mövqeləri daha yaxındır. Əsgərlər məni müşayiət edirdilər. İstəyirdim ki, onlar irəlidə getsin və mən də şəkillər çəkim. Amma nə qədər xahiş etdimsə, onlardan biri mənim arxada gəlməyimə razı olmadı. Dedi ki, düşməndən hər şey gözləmək olar, sizin kim olduğunuzu bilib atəş açarlar, qoy güllə sizə yox, mənə dəysin. Çox müharibələrdə olmuşam, amma belə mərd əsgərlər görməmişəm”.

Vətən müharibəsinin bir çox özəllikləri ilə tarixdə xüsusi yeri tutacağını deyən fotoqraf vurğulayıb ki, Prezident İlham Əliyev həm hərbi, həm diplomatik, həm də informasiya istiqamətində yüksək səviyyədə idarəçilik nümayiş etdirərək Azərbaycana Zəfər qazandırdı. “Gördüyüm münaqişələrdə adətən bu sahələrə ayrı-ayrı şəxslər rəhbərlik edirdilər. Amma burada Prezident İlham Əliyev bu üç sahəni eyni uğurla idarə etdi ki, torpaqlar cəmi 44 gün ərzində azad olundu”, - deyə Reza Deqati bildirib.

Görüşdə Vətən müharibəsinə həsr olunmuş birgə layihələrin reallaşdırılması, sərgilərin təşkili, həmçinin agentliyin fotomüxbirləri üçün ustad dərslərinin keçirilməsi məsələləri müzakirə edilib.

# DSX narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini davam etdirir

**Dövlət Sərhəd Xidməti (DSX) narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini davam etdirir. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, fevralın 7-də Xidmətin Sərhəd Qoşunlarının “Göytəpə” sərhəd dəstəsinin xidməti ərazisində Yardımlı rayonunun Abbasalı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində sərhəd naryadı tərəfindən sərhədboyu zolaqda dörd nəfər naməlum şəxsin hərəkəti müşahidə olunub. Sərhəd naryadı tərəfindən onlara “Dayan!” komandası verilib, sərhəd pozucuları əmrə tabe olmayaraq hadisə yerindən qaçıblar.**

Sərhəd zastavası “Silaha!” komandası üzrə qaldırılıb, xidməti ərazi qapadılıb, sərhəd naryadları tərəfindən qaçaqmalçıların təqibi və hadisə yerinin axtarışı həyata keçirilib. Əraziyə baxış zamanı dörd ədəd qara rəngli kisədə təxmini ümumi çəkisi 73 kiloqram olan narkotik vasitələrə və psixotrop preparatlara oxşar maddələr aşkarlanaraq götürülüb.

Sərhəd pozucularından biri - Yardımlı rayon sakini 1991-ci il təvəllüdlü Heydərli Orxan Nizami oğlu sərhəd naryadı tərəfindən yaxalanıb, digər üç nəfər ərazinin mürəkkəb dağlıq və meşə relyefli olmasından istifadə edərək hadisə yerindən uzaqlaşıblar.



Sərhəd pozucularının şəxsiyyətləri dərhal müəyyənləşdirilib, Yardımlı rayonunun polis şöbəsinin əməkdaşları ilə birlikdə həyata keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində Yardımlı rayon sakinləri 1991-ci il təvəllüdlü Sultanov Eldəniz Arzuman oğlunun və 1996-cı il təvəllüdlü Sultanov Orxan Ənvər oğlunun olduqları yer müəyyənləşdirilərək saxlanılıblar. Saxlanılmış şəxslərin sərhəd naryadlarının təqibindən yayınmaq üçün yüksək qayalıqdan tullanmaları nəticəsində yüngül bədən xəsarətləri almaları məlum olub. Digər sərhəd pozucusunun axtarışı üzrə tədbirlər həyata keçirilir. Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Sağlam düşüncəli vətəndaş, peşəkar neftçi, YAP-ın sadiq əsgəri

**Ümummilli liderimiz Heydər Əliyev ideyalarının fəal təbliğatçısı, parlaq zəkası, işgüzarlığı, təmiz əxlaqı və sağlam əqidəsi ilə Azərbaycan neftçilərinin, partiyamızın dərin rəğbət və hörmətini qazanmış müharibə və əmək veteranı, 1997-ci ildən YAP-Səbayıl rayon təşkilatının şura üzvü, YAP-Səbayıl rayon Mərkəzi Ərazi ilk təşkilatının sədri Məmmədzadə Məhəmmədəli İsrafil oğlu 10 fevral 1951-ci ildə Azərbaycanın dilbər guşələrindən biri olan Cəbrayıl rayonunun Hovuslu (Hafisli) kəndində anadan olmuşdur.**

1968-ci ildə Cəbrayıl rayonundakı akademik Mehdi Mehdizadə adına orta məktəbi əla qiymətlərlə bitirmiş və Azərbaycan Neft Akademiyasına (M.Əzizbəyov adına Neft və Kimya İnstitutu)daxil olmuş və 1973-cü ildə ali təhsilini başa vurmuşdur. 1973-1975-ci illərdə "gənc-mütəxəssis" təyinatı ilə SSRİ Müdafiə Nazirliyinin 09321 saylı hərbi hissəsində zabit olaraq hərbi xidmət keçmişdir. Nümunəvi hərbi xidmətinə və yüksək idarəçilik bacarığına görə onun şəkli "Şərəf lövhəsində" asılmışdır.

1975-ci İldə "Neft Daşları"nda elektrik montyoru kimi əmək fəaliyyətinə başlayan M.Məmmədzadə qısa bir zamanda kollektivin dərin hörmət və etimadını qazanmış və 1981-ciilə kimi müxtəlif vəzifələrdə çalışmışdır. Gənc mühəndisin çətinliklərə sinə gəlməsi, daim öz üzərində işləməsi neft sənayesi rəhbərliyinin gözündən yayınmamış, 1981-ci ildə onu "Xəzərdənizneftqaz" İstehsalat Birliyinin baş energetik şöbəsinə böyük mühəndis vəzifəsinə təyin etmişlər.

"Neft Daşları"nda topladığı zəngin təcrübə onun gələcək uğurlu fəaliyyətinə zəmin yaratdı."Günəşli"dən tutmuş "Pirallahı"yadək, "Bahar"dan "Səngəçal"adək onlarca energetika obyektlərinin tikintisində, yüksək gərginlikli elektrik xətlərinin və sualtı kabellərin çəkilməsində onun xüsusi xidmətləri olmuşdur. "Neft Daşları"ndakı unikal Qaz TrubinliElektrik Stansiyasının (QTES-48) tikintisinin qısa müddətdə və uğurlu başa çatdırılmasında fəal çalışmışdır.

Böyük təşkilatçılıq bacarığı, işgüzarlığı, zəhmətkeşliyi və tələbkarlığı ilə fərqlənən M.Məmmədzadə neft-qaz mədənlərinin elektrik enerjisi ilə fasiləsiz təmin edilməsi üçün uzun İllər yorulmaq bilmədən çalışmışdır. 25 il neft sənayesinin mərkəzi İdarəetmə aparatında müxtəlif vəzifələrdə çalışmış, "Xəzərdənizneftqaz"-nin və "Azneft" İB-nin baş energetikinin müavini, 2003-2006-cı illərdə ARDNŞ-in baş energetik şöbəsinin rəisi və baş energetiki kimi fəaliyyət göstərmişdir. ARDNŞ-in "İlk baş energetiki" kimi onun adı neft sənayesinin tarixinə düşmüşdür. Elə bu gün də neftçi-energetiklər Məhəmmədəli müəllimi öz ağsaqqalları kimitanıyırlar.

Tələbəlik illərində məsuliyyət özünə və yoldaşlarına tələbkar olmaqla ictimai sahədə də



nümunəvi fəallıq nümayiş etməklə "Neft kadrları uğrunda" qəzetində tələbə-müxbir kimi bir sıra məqalələrin müəllifi olmuşdur. "Neft Daşların"da çalışdığı dövrdə də İctimaiyyətçi kimi gənclər təşkilatında geniş fəaliyyət göstərmişdir.

DNQÇ İB-nın və "Azərineft" NQÇİ üzrə Baş İdarənin Həmkarlar İttifaqı Komitəsinin sədri, Azərbaycan Neft və Qaz Sənayesi İşçilərinin Həmkarlar İttifaqları Respublika Komitəsinin Rəyasət Heyətinin üzvü, Respublika Həmkarlar İttifaqları Konfederasiyasının məclis üzvü kimi fəaliyyət göstərmişdir. O, 1991-1992-ci İllərdə İstanbul Universiteti və Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Xalq Təsərrüfatının İdarəetmə İnstitutunun birgə təşkil etdiyi xüsusi kursu bitirərək "Menecment" sertifikatına layiq görülmüşdür.

1994-1996-cı İllərdə Xarici İşlər Nazirliyinin tövsiyəsi və Nazirlər Kabinetinin ARDNŞ-e məktubu əsasında Ankaradakı Türkiyə və Orta Şərq ölkələri üzrə İctimai İdarəetmə İnstitutunda təhsil almışdır. Paralel olaraq Türkiyə XİN-in TİKA təşkilatında məsləhətçi-tərcüməçi kimi çalışmışdır.

Topoqrafiya İdarəsində rəis müavini, 2009-2014-cü illərdə H.Z.Tağıyev adına NQÇİ-də M.Məmmədzadə 2006-2009-cu İllərdə Kompleks Geoloji Kəşfiyyat və baş mühəndisin ƏM və TT üzrə müavini vəzifəsində çalışmış və təqaüd yaşı ilə əlaqədar istehsalatdan ayrılmışdır. O, istehsalatda öz tətbiqini tapmış 30-a qədər səmərələşdirici təklifin müəllifidir.

2003-cü ilin Prezident seçkilərində Naxçıvan MR və Gürcüstanda həmyerlilərimizin cəm halda yaşadıqları Marneuli rayonuda daxil olmaqla Respublikasımızın bütün bölgələrini əhatə etməklə 20-dən çox şəhər və rayon mərkəzlərində "Heydər Əliyev və Azərbaycanın Neft Strategiyası" mövzusunda aparılmış təbliğat kampaniyası Məhəmmədəli müəllimin rəhbərliyi və təşkilatçılığı ilə həyata keçirilmişdir.

Məhəmmədəli müəllimin keçdiyi zəngin və şərəfli həyat yolu, yorulmaz əmək fəaliyyəti, qarşıya qoyduğu ülvi məqsədlərə nail olma üçün nümayiş etdirdiyi qabiliyyət, bilik, prinsipallıq, qəti iradə, şəxsi mənəvi və yüksək insani keyfiyyəti onun əsl şəxsiyyət el ağsaqqalı səviyyəsinə yüksəldib. Ölkəmizin ən mürəkkəb, keşməkeşli dövlətində o, möhkəm əqidəli insan kimi daima vətənə, xalqa sadiqlik əsl vətəndaş mövqyini sədaqətlə nümayiş etdirmişdir. Özünə, həmkarlarına tələbkar olmaqla yanaşı, insanlara qarşı həssas, qayğıkeş və hədsiz diqqətcildir.

Öz işində daim yenilik tətbiq edən gənclərin himayəçisi və tərbiyəçisi olan, qarşıya qoyduğu məqsədə çatmağa təkidlə can atan, həmkarlarına münasibətdə qayğıkeşliyi və səmimiyyəti ilə seçilən Məhəmmədəli Məmmədzadənin adı həmişə həmkarları arasında zəhmətkeş adam, gözəl mütəxəssis, xeyirxah insan kimi çəkilib. 70 yaşın zirvəsində taleyin ona bəxş etdiyi ömür kitabını vərəqləyəndə bir həqiqəti anlayırsan ki , Məhəmmədəli müəllim yalnız bir amal, bir istəklə yaşayıb; tapşırılan işin, vətənə sədaqətin, vicdan təmizliyinin məsuliyyətini dərk et, bir əlin daim haqqın, Ulu tanrının ətəyində olsun.

Məmmədzadə Məhəmmədəli Ümumilli lider Heydər Əliyevin zəngin irsinin təbliğinə sadiqliklə xidmət edən yüksək, saf əqidəli, millətinə, torpağına vətəninə bağlı olan əsl Azərbaycan vətəndaşıdır. Yeni Azərbaycan Partiyasının veteranı fəal üzvi kimi partiyanın ictimai-siyasi, mədəni-kütləvi tədbirlərində iştirak etməklə yanaşı YAP ARDNS üzrə ərazi ilk partiya təşkilatının yaradıcılarından biri kimi 2007-ci ilə qədər bu təşkilatın sədr müavini və sədri olmuşdur. Məhz onun səyləri nəticəsində təşkilatın üzvlərinin sayı qeyd olunan dövrdə 4 nəfərdən 2500 nəfərədək artmışdır. Hazırda Məhəmmədəli müəllim YAP Səbail rayon təşkilatının nəzdində fəaliyyət göstərən "Mərkəzi Səbail" ərazi ilk partiya təşkilatına uğurla rəhbərlik edir.

Məhəmmədəli müəllim həm də gözəl ailə başçısı, həyat yoldaşı, nümunəvi ata və babadır. Həyat yoldaşı Fəzilə xanım uzun İllər "Dənizdə" NQÇ İB-də və "Azneft" İB-də onunla çiyin-çiyinə çalışmış, hazırda təqaüdçüdür.

M.Məmmədzadə dəfələrlə müxtəlif mükafatlara layiq görülmüşdür. Neft sənayesindəki uzunmüddətli səmərəli fəaliyyətinə görə, ARDNŞ-ın fəxri fərmanına, respublikamızın müstəqilliyi uğrunda apardığı mübarizəyə görə Kütləvi İnformasiya Vasitələri HİK-in "Azərbaycan Bayrağı" və "Vətən" mükafatlarına, Prezident, parlament, bələdiyyə seçkilərində aktiv səmərəli fəaliyyətinə və YAP-ın İƏPT-nın formalaşmasında inkişafında xüsusi xidmətlərinə görə MSK-nın və YAP Səbail rayon təşkilatının fəxri fərmanlarına, çoxsaylı təşəkkür məktublarına layiq görülmüşdür.

M.Məmmədzadəni fərqləndirən cəhət - hadisələri obyektiv qiymətləndirmək bacarığı özünün prinsipial mövqeyinin olması və hər işə məsuliyyətlə yanaşmasıdır. O, çalışdığı sahədə kifayət qədər savadlı və təcrübəli olmaqla yanaşı, öz həmkarlarına qarşı münasibətdə də diqqətli və təvazökardır. Bu şanlı yubiley günü münasibətilə Məhəmmədəli müəllimi səmimi qəlbdən təbrik edir, həyatda ona sağlam uzun ömür,dəyərli faydalı fəaliyyətində yüksək nailiyyətlər arzulayırıq.

***YAP Səbail rayon təşkilatı adından***
***Prof. Ş.Hacıyev***

# "YAŞAT": İndiyədək 2 745 şəhid ailəsi ziyarət olunub




Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu ("YAŞAT" Fondu) tərəfindən ağır yaralanan qazilərimizin səhhətinin bərpası ilə bağlı tədbirlər davam etdirilir. "Report" xəbər verir ki, Fond tərəfindən indiyədək 2 745 şəhid ailəsi ziyarət olunub.

Eyni zamanda, bu günədək 1 960 şəxs öhdəliyə götürülüb və onların problemlərinin həlli davam etdirilir. 288 yaralının müraciəti qeydə alınıb. Ümumilikdə, ziyarət olunan şəhid ailəsi üzvləri və yaralıların sayı 11 847-dir.

# Azad edilmiş ərazilərin bərpası yeni iş yerlərinin yaranmasına səbəb olacaq



İşğaldan azad edilən ərazilərdə bərpa-quruculuq işləri Azərbaycanda yeni iş yerlərinin açılmasına, iqtisadiyyatın əhəmiyyətli dərəcədə inkişafına səbəb olacaq. Bunu Trend-ə Milli Məclisin deputatı Cavid Osmanov deyib. Deputat bildirib ki, erməni işğalı altında olduğu 30 ilə yaxın müddət ərzində həmin ərazilərdə nə varsa dağıdılıb, infrastruktur məhv edilib:

"Vətən müharibəsi başa çatdıqdan dərhal sonra müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərmizə ardıcıl səfərlər etdi və səfərlər çərçivəsində həmin ərazilərdə yenidənqurma işlərinin aparılması, infrastruktur layihələrinin həyata keçirilməsi ilə bağlı tapşırıqlar verdi, eyni zamanda təməlqoyma mərasimlərində iştirak etdi. Artıq işğaldan azad edilən torpaqlarımızda quruculuq işlərinə start verilib.

Bu, ilk növbədə Azərbaycanın güclü və qüdrətli bir dövlət olduğunu sübut edir və bu ərazilərin bərpa olunması gücümüzü daha da artıracaq, iqtsadiyyatımızı daha da inkişaf etdirəcək və eyni zamanda çoxlu sayda yeni iş yerlərinin açılmasına imkan yaradacaq. Yəni həm infrastruktur layihələrinin həyata keçirilməsi, həm dini, mədəni və tarixi abidələrin bərpası, həm də mənzillərin, evlərin, sosial obyektlərin tikilməsi prosesində əlbəttə ki, daha çox iş yerləri açılacaq və ondan sonrakı mərhələdə də həmin ərazilərdə turizmin inkişafı və yeni müəssisələrin yaradılması daimi iş yerlərinin yaradılmasına səbəb olacaq. Bütün bu proseslər vətəndaşlarımızın işlə təminatı məsələsini xeyli yaxşılaşdırmaqla yanaşı ölkə iqtisadiyyatının inkişafına mühüm töhfə vermiş olacaq".

# Düşmən sülhə hazır deyil: bəs cavab nə vaxt veriləcək?!

## *Vaqram Porosyan: "Artsax"ın "müdafiə ordusu" buraxılmayıb, əksinə, yenidən formalaşdırılıb"*

Qarabağda erməni separatçılarının təxribatçı əməlləri tam sürəti ilə davam etməkdədir. SİA xəbər verir ki, @rusyerevantoday teleqram kanalının yazdığına görə, hələ də azadlıqda gəzən quldur və terrorçu "dqr" rejiminin "prezideti" Araik Arutunyanın "mətbuat katibi" Vaqram Poqosyan "Haykakan Jamanak" qəzetinə verdiyi müsahibəsində bildirib ki, "artsax"ın "müdafiə ordusu" buraxılmayıb, əksinə, yenidən formalaşdırılıb (?!-R.R.).

Poqosyan bu da azmış kimi qeyd edib ki, hədəf peşəkar orduya keçid etməkdən ibarətdir və hazırda xidmətə çağırılan hərbçilərin xidmət müddətlərinin azaldılması ətrafında müzakirələr aparılır.

Xatırladaq ki, ötən gün "dqr"in saxta "təhlükəsizlik şurasının sədri" Vitali Balasanyan Xankəndidəki dövlət strukturlarına məxsus binalarda Azərbaycanın dövlət bayrağının qaldırılacağı ilə bağlı səslənən fikirlərə münasibətini açıqlayarkən"Azərbaycan bayrağı "stepanakertin" (Xankəndinin-R.R.) mərkəzində olmayacaq" fikrini səsləndirib.

Sülhməramlıların nəzarət etdikləri ərazilərimizdə bənzər fikirlərin səslənməsi və bunun ardıcıllıqla, mütəmadi olaraq bildirilməsi qəbul edilən üçtərəfli bəyanatdakı müddəaları pozur

Balasanyan mətbuatda və sosial şəbəkələrdə Qarabağın "özünümüdafiə ordusunun" buraxılacağı ilə bağlı yayılan məlumatlar barədə də danışarkən deyib ki, "artsaxın" qondarma "dövlət strukturları" müqavilə




əsasında hərbi birliklər yaradır. "Bu, sərhədlərin toxunulmazlığının müdafiəsi məqsədi ilə edilir", deyə o söyləyib.

Balasanyan Xankəndinə və Əsgərana yaxın məntəqələrə azərbaycanlı qaçqın və məcburi köçkünlərin qaytarılacağı ilə bağlı məlumatları, həmçinin azərbaycanlı hərbçilərin "stepanakert" mağazalarında alış-veriş etmələri barədə informasiyaları da "təkzib" edib.

Qeyd edək ki, Rusiya sülhməramlılarının atəşkəsə nəzarət etdikləri ərazilərdə bənzər fikirlərin səslənməsi və bunun ardıcıllıqla, mütəmadi olaraq bildirilməsi qəbul edilən üçtərəfli bəyanatdakı müddəalarla uyğun gəlmir və hələ ki, ölkəmizin müvafiq güc strukturları, həmçinin, diplomatik mənbələri tərəfindən separatçı və terrorçuların bənzər siyasi həyasızlıqlarına qarşı lazımi cavablar verilmir, suverenliyimizə təhdid kimi qiymətləndirilən bu kimi oyunbazlıqlara son qoyulması yönündə qəti tələblər irəli sürülmür. Daha dəqiq desək, belə bir ardıcıllığın sübutu göstərir ki, düşmən sülhə hazır deyil və erməni tərəfi əlinə düşən istənilən məqamda təxribatçı əməllərə gedərək, terrorçuluq məqsədlərini reallaşdırmaq marağını qoruyub-saxlamaqdadır.

Onu da xatırlatmaq yerinə düşərdi ki, Ermənistanın hakim və digər hərbi-siyasi dairələrində bu ölkənin hələ də "artsaxın" qarantı olması barədə bəyanatlar səslənməkdədir...

***Rövşən RƏSULOV***

# Televiziyaların yol verdiyi əsas nöqsanlar hansılardır?

**İl ərzində Azərbaycanda ümumrespublika televiziya və radio kanalları tərəfindən teleradio yayımı haqqında qanunvericiliyin bir sıra tələblərinin pozulması hallarına da yol verilib. Bu barədə Milli Televiziya və Radio Şurasının illik hesabatında qeyd olunub. Hesabata əsasən, yayımçılar əsasən aşağıdakı qanunvericilik aktlarını və onların müddəalarını pozublar:**

"Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 35.7-ci maddəsi (reklamın və teleticarətin ümumi həcmi bir saatda 12 dəqiqədən çox ola bilməz);

"Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 35.12-ci maddəsi (Həkim resepti olmadan buraxılan dərman vasitələrinin reklamı zamanı "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 16-1-ci maddəsinin tələbləri nəzərə alınmalıdır);



"Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 40.2.1-1-ci maddə (Azərbaycan Respublikasının Dövlət Himnini hər səhər Azərbaycan Respublikasının televiziya və radio yayımlarının əvvəlində "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinə uyğun olaraq səsləndirmək);

"Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 13.2-ci maddəsi (televiziya və radioda verilən sponsor reklamında bu məlumatların ümumi həcmi hər bir proqramda (verilişdə) 2 dəqiqədən çox olmamalıdır);

"Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 13.7-ci maddəsi (sponsor reklamında "sponsor" sözünün başqa anlayışlarla əvəz olunmasına yol verilmir);

"Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununun 14.1.4-cü maddəsi (radio, televiziya proqramlarında, uşaqlar üçün nəzərdə tutulan audiovizual əsərlərdə tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirilməsi, həmçinin tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirildiyi əsərlərin, tamaşaların, proqramların efirdə, kabel yayımı vasitəsi ilə açıq yayımlanması);

"Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununun 4.2.5-ci maddəsi (əxlaqdan kənar leksik (söyüş) məzmunlu informasiya);

Ümumilikdə, aparılmış monitorinqlər göstərmişdir ki, Şura tərəfindən həyata keçirilmiş müvafiq tədbirlər nəticəsində 2020-ci ilin ikinci yarısında televiziya və radio yayımı haqqında qanunvericiliyin tələblərinə yayımçılar tərəfindən riayət olunması istiqamətində müsbət dinamika müşahidə edilib.

## "Bildirçinin bəyliyi..."



Ermənilərin özləri barədə riyakarlığın hələ ana bətnində olarkən onların qanına sızdığı barədə dedikləri, doğrudan da, həqiqəti əks etdirir. Bu fikir erməni xalqının iç üzünü açaraq onların xainlik və saxtakarlıqla dolu olan daxili dünyasını tam çılpaqlığı ilə göstərir. Öz milli varlıqları üçün bu gün də birbaşa türklərə borclu olmalı olan bir toplum (adamın xalq da deməyə dili gəlmir-A.B.), həmişə olduğu kimi, bu dəfə Qarabağa "sülhməramlı"lar kimi gətirilən rus hərbçilərinin arxasında gizlənib bizə hərdən "xox" da gəlirlər. Əslində, "it hürər, karvan keçər" məsəlini əsas tutub bunu ciddiyə almamaq da olardı. Amma necə deyərlər, "milçək bir şey olmasa da, ürək bulandırır". Yenə də...

Beləliklə, sən demə, hərbi təhsili belə olmayan Vitali Balasanyan adlı birisi rusların az qala silah gücünə qabaqlarına qatıb Qarabağa qaytardıqları erməniləri qorumaq üçün məğlub erməni əsgərlərinin tör-töküntülərindən "peşəkar bir ordu" yaratmaqla məşğuldur. SİA bu barədə məlumatı erməni mənbələrinə istinadən bildirir. Maraqlıdır ki, Azərbaycan şəhəri olan Xankəndində "təhlükəsizlik şurası" adlı saxta bir təşkilat yaradıb, özünü onun sədri elan edən Balasanyan şəhərin mərkəzindəki dövlət binalarında heç bir Azərbaycan bayraqlarının asılmayacağını da bildirib. Əslində, Balasanyanın bu əməli mənə "bildirçinin bəyliyi"ni xatırladır. Bəlkə də o, unudur ki, darının sulanması elə də uzaqda deyil.

Yeri gəlmişkən deyim: Amerikada yaşayan L. Sürməliyan adlı bir erməni yazar var. O, etiraf edir ki, iki xalq - azərbayacanlılarla ermənilər arasınadakı ziddiyyətlərin əsas səbəblərindən biri Azərbayacan xalqının humanizminə, qayğıkeşliyinə, vətənpərvərliyinə qarşı ermənilərin aramsız olaraq davam edən qəddarlığıdır. Məncə, şərhə ehtiyac yoxdur...

***Ağasəf Babayev***

# Gəlinini doğrayıb, çuvallara yığan qaynata...

**Yanvarın 27-də, gecə saat 01:00 radələrində, Bakının Nəsimi rayonu Əliskəndər İskəndərov küçəsindəki zibil qutusundan 5 ədəd torbada doğranmış qadın cəsədi tapılıb. Aparılan araşdırma zamanı 33 yaşlı Banu Məhərrəmovanın 75 yaşlı qayınatası İdris Məhərrəmov tərəfindən amansızcasına qətlə yetirildiyi, daha sonra parçalara bölünərək, zibil qutusuna atıldığı müəyyən olunub. O, dərhal həbs olunub. Məhərrəmova Banu Xudayar qızının qətli barədə yeni detallar bəlli olub.**

Xəbər verilir ki, 75 yaşlı qayınata İdris Məhərrəmovun vəkili Rəhim Əmrəliyev hadisənin bilinməyən tərəfləri barədə mediaya danışıb. O bildirib ki, İdris Məhərrəmov cinayəti törətdiyini etiraf edib: "Hələ ki, istintaq gedir. İstintaq orqanı bu hadisənin bütün detallarını araşdırır. İdris Məhərrəmovun bildirdiyinə görə, meyiti hissələrə bölməsində əsas məqsədi qətlə yetirdiyi şəxsin cəsədinin mənzildən daha asan yolla çıxarmaq olub. Meyiti hissələrə bölərkən isə bıçaq və baltadan istifadə edib. İdris Məhərrəmovun dediyinə görə, cinayəti törətməsinə səbəb gəlininin vaxtaşırı ona cavab qaytarması, onu saya almaması, bir qayınata kimi ona hörmət etməməsi olub".

Vəkil qeyd edib ki, cinayət törədən İ.Məhərrəmovun kifayət qədər normal ailəsi var: "Öldürülən Banu Məhərrəmovanın həyat yoldaşı keçən ilin yanvar ayında Azərbaycandan gedib və Kanadada yaşayır. Onların qanuni nikahları və iki övladı var. Övladları azyaşlıdır. Cinayət axşamüstü olub. Özü də dedi ki, heç kimin bilməsini istəməyib. İ.Məhərrəmovun sözlərinə görə, əvvəllər gəlini ilə qayınanası və özü arasında ailədaxili xırda məişət zəminində mübahisələri olub".

Rəhim Əmrəliyev hadisənin təfərrüatını belə izah edib: "İdris Məhərrəmov aralarında olan mübahisədən sonra Banu Məhərrəmovanın gözləmədiyi halda əlində olan çəkiclə arxadan yaxınlaşaraq, başından iki zərbə vurub. Daha sonra gəlin huşunu itirərək, yerə yıxılıb. Daha sonra onu sürüyərək, həyətə aparıb. Həyətdə isə su axan kanalizasiya xəttinin yanında cinayəti davam etdirib. Qarın nahiyəsinə bir neçə yerdən bıçaq vurub, sonra isə hissələrə doğrayıb, çuvallara yığaraq, zibil yeşiklərinə atıb.



İstintaq orqanının təyin etdiyi ekspertizanın rəyindən sonra bu adamın həqiqətən də psixoloji probleminin olub-olmadığı aydın olacaq. Ekspertizanın rəyindən sonra istintaq orqanının həmin şəxsə verdiyi ittihamlar ola bilsin ki, daha yüngül maddə ilə əvəz edilsin. Yaxud da gələcəkdə məhkəmə mərhələsində bu şəxsin əməli başqa maddəyə tövsif oluna bilər".

# Korotçenkonun sorğusu: Ermənistan böhrandan çıxa bilməyəcək, HEÇ VAXT!

Rusiyalı politoloq, "Milli müdafiə" hərbi-siyasi jurnalının təsisçisi və baş redaktoru İqor Korotçenko "Ermənistan nə zaman böhrandan çıxacaq?" sualı altında teleqram və tvitter səhifəsində sorğu keçirib. SİA xəbər verir ki, sorğuda irəli sürülən sualların hər birində rəqəm və faiz göstəriciləri qoyulub.


Игорь Коротченко
@i_korotchenko

Когда Армения выйдет из кризиса?

| | |
|---|---|
| Уже скоро | 3 % |
| После отставки Пашиняна | 17 % |
| Никогда | 66 % |
| Затрудняюсь ответить | 14 % |

Голосов: 1 908 · Итоговые результаты

17:01 · 03.02.2021 · Twitter for iPhone

Посмотреть действия с твитами

26 ретвита(-ов) 94 отметки(-ок) «Нравится»

Beləliklə, teleqram səhifəsindəki sorğuda iştirak edənlərin "Tezliklə" cavabını verənlər 3%, "Paşinyanın istefasından sonra" cavabına səs verənlər 3%, "Heç vaxt" deyənlər 82 %, "Cavab verməyə çətinlik çəkirəm" bildirənlər isə 12%-i təşkil edibər. Tvitterdəki sorğuda da bənzər hal yaşanıb. Belə ki, "Tez bir zamanda" deyənlər 3%, "Paşinyanın istefasından sonra" bildirənlər 17%, "Heç vaxt" iddiasına səs verənlər 66%,"Cavab verməyə çətinlik çəkirəm", deyə səs verənlər isə 14%-i göstərib. Nəticədə sorğuda iştirak edənlərin böyük əksəriyyəti Ermənistanın düşdüyü siyasi-iqtisadi böhrandan heç vaxt çıxa bilməyəcəyi qənaətinə gəliblər.

***Rövşən RƏSULOV***

# Polietilen torbalar alıcılara pulla satılacaq

Nazirlər Kabinetinin 28 № li Qərarına dair izah verib. Qurumdan SİA-ya bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 7 fevral tarixli 935 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı"nın strateji məqsədinə uyğun olaraq nəzərdə tutulmuş tədbirlər, habelə beynəlxalq təcrübə və normalar nəzərə alınmaqla və eyni zamanda "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda edilmiş son dəyişikliklərə əsasən 15 mikrona qədər olan polietilen məhsulların sahibkarlar tərəfindən idxalı, istehsalı, həmçinin ticarət, ictimai iaşə və digər xidmət obyektlərində istehlakçıya satılması və ya verilməsi qadağan edilmişdir.

Polietilen torba tullantılarının ətraf mühitə mənfi təsirlərini azaltmaq, resurslardan daha səmərəli istifadəni təşviq etmək məqsədilə beynəlxalq təcrübəyə uyğun bir sıra plastik qablaşdırma vasitələrinin istehsalı və istehlakının mərhələli şəkildə azaldılması və eyni zamanda aparılan qiymətləndirmə göstərir ki, beynəlxalq təcrübədə istehlakçılara (alıcılara) ayrıca məhsul növü kimi təqdim edildikdə bu torbalara tələbat 50-60% azalır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 2 fevral tarixli 25 nömrəli Qərarında alqı-satqı prosesində mal və məhsulların daşınması üçün təklif olunan birdəfəlik istifadə üçün nəzərdə tutulmuş, qalınlığı 15-50 mikron olan yüngül çəkili polietilen torbalar istehlakçılara (alıcılara) ayrıca məhsul növü kimi təqdim edilməsini və bu növ məhsulların ayrıca təqdim edildiyi və satış qiyməti barədə istehlakçıya (alıcıya) əvvəlcədən məlumat verilməsi nəzərdə tutur.

# 3 nəfərin minaya düşməsilə bağlı cinayət işi başlandı



Cəbrayıl rayonunda 3 nəfərin minaya düşməsi ilə bağlı cinayət işi başlanıb. Baş Prokurorluqdan SİA-ya verilən məlumatda bildirilir ki, fevralın 7-də Füzuli rayon sakinləri Mehman Quliyevin, İlqar Əhmədovun və Müstəqim Ələsgərovun Cəbrayıl rayonunun işğaldan azad olunmuş ərazisində olarkən İlqar Əhmədova məxsus "VAZ 2106" markalı 99 NH 623 dövlət qeydiyyat nişanlı avtomobilin tank əleyhinə minaya düşərək partlaması faktı ilə bağlı Cəbrayıl rayon prokurorluğunda araşdırma aparılıb.

Prokurorluq əməkdaşları, o cümlədən prokuror-kriminalistlər tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə keçirilən baxış zamanı həmin ərazidə 1988-ci il təvəllüdlü Mehman Quliyevin meyiti, başqa şəxslərə aid meyit fraqmentləri aşkar edilmiş, həmin fraqmentlərin İ.Məmmədova və M.Ələsgərova aid olub-olmamasını müəyyən etmək məqsədilə məhkəmə tibbi-genetik ekspertizası təyin edilmişdir.

Faktla bağlı Cəbrayıl rayon prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma), 116.0.6 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.4 (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə) 120.2.7 (iki və ya daha çox şəxsi öldürmə) və digər maddələri ilə cinayət işi başlanılmışdır. Hazırda cinayət işi üzrə intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir. İstintaqın gedişatı və nəticəsi barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcəkdir.

# Şərəf və ləyaqətini itirənləri tarix heç vaxt bağışlamır

**Azərbaycanın tanınmış şairi Əhməd Cavad deyirdi: "Xalqımızın haqq bağıran səsi olmalı, milli-dövlətçiliyimizin tərənnümçüsü və keşikçisi olmalıdır". Təəssüflər olsun ki, Azərbaycandan xaricdə yaşayan heç də bütün soydaşlarımız ölkəmizin, xalqımızın, dövlətimizin tərənnümçüsü ola bilmirlər. Bir sıra hallarda bəzi soydaşlarımız xarici dairələrin təsiri altına düşür, təmsil olunduqları cəmiyyətlərdə Azərbaycan əleyhinə kampaniya aparır, ölkəmizin beynəlxalq nüfuzuna xələl gətirməyə çalışırlar.**

Belələrinə nümunə kimi, tural sadıqlıları, orduxan teymurxanları, məhəmməd mirzəliləri, arif məmmədovları, emin millilər, qurban məmmədovları, sevinc osmanqızıları, qənimət zahidləri və bu kimilər müxtəlif bəhanələrlə Azərbaycanı tərk edib Avropaya sığınan, sonradan özlərini "demokrat", "hüquq müdafiəçisi", "blogger", "siyasi mühacir" adlandıran bu antimilli ünsürlər ermənipərəst dairələrin, eləcə də erməni diaspor təşkilatlarının təsiri altında olan beynəlxalq təşkilatların sifarişi ilə əllərinə keçən hər fürsətdə ölkəmizə çamur atmağa çalışırlar.

Onlar xüsusən sosial şəbəkələr üzərindən Azərbaycan üzərinə "səlib yürüşünə" çıxır, dezinformasiyaları "həqiqət" kimi yayırlar. Buna nə ad vermək olar? Xəyanət! Xəyanət başqa necə olur ki?! Təbii ki, hər kəs bilir ki, bütün bunları onlar sifariş əsasında həyata keçirirlər. Birbaşa erməni lobbiçilərinin və diasporasının tapşırıqlarını yerinə yetirirlər. Onlara erməni lobbiçilərinin açıq və ya dolayısı ilə göstərdiyi maliyyə dəstəyi hər kəsə bəllidir. Ancaq insan nə qədər şərəfini və ya ləyaqətini itirə bilər ki, indiki situasiyada öz xalqına və dövlətinə qarşı bu cür iyrənc şər-böhtan atasan?! Ermənidən də artıq erməni olan bu çamurlar... Bunlar düşmən ölkələrin oyuncaqlarıdır. Çünki onlar satıldıqları və sifarişlərini yerinə yetirdikləri Azərbaycanı sevməyən bəzi xarici qüvvələr qarşısında öhdəlik götürüblər. Həmin sifarişləri məhz ölkəmiz üçün belə həssas məqamlarda yerinə yetirərək, insanlarımızın hissləri ilə daha çox oynamaqda, özlərinə olan nifrəti artırmaqdadırlar. Ermənilərin Azərbaycana qarşı əsas silahlarını aktivləşdirmələri ilə xaricdəki antimilli şəbəkə sinxron şəkildə sentyabrın 27-dən başlayan təxribatları Aprel döyüşlərində olduğu kimi, sosial şəbəkələrdə dezinformasiya yaymaqda oldular. Və başladılar ki, guya böyük bir ərazi itirmişik, qurbanlarımız daha çoxdur, gizlədirik və s... Sevinc Osmanqızı, Arif Məmmədov, Vidadi İsgəndərli və digərləri bu dəfə də eyni tezislər əsasında bəyanatlar verməyə başladılar. Onlar xaricdə azərbaycanlıların Ermənistanın işğalçılıq siyasətinin əleyhinə olan aksiyalarını xuliqanlıq, quldurluq, vətənşüvənlik kimi qələmə verdilər. Xalqımıza, dövlətçilik maraqlarımıza, milli məsələlərimizə belə qəbuledilməz münasibətlə sübut etdilər ki, bu dəyərləri çoxdan itiriblər.

### Erməni ilə həmrəy olan riyakarlar

Bütün bu gerçəkliklər fonunda Azərbaycan öz sivil mübarizəsindən bir addım da geri çəkilmir və erməni yalanının ifşası üçün dövlətini, millətini sevən hər kəs əlindən gələni əsirgəmir. Lakin təəssüflə qeyd etməliyik ki, əsl həqiqətləri sivil formada dünyaya bəyan etmək imkanlarımız daha da genişləndiyi bir zamanda içimizdən çıxan xainlər də erməni təəssübkeşliklərini ortaya qoyublar. Bu xalqın onlara olan nifrət hissini daha da artırıb və dünya azərbaycanlılarını bərk hiddətləndirib. Həmin üzdəniraq ünsürlər hər zaman Azərbaycanın uğurlarına kölgə salmaqla, dünyada etibarlı tərəfdaş kimi qəbul olunmasına qarşı çıxmaq istəyən qüvvələrə dəstək verməklə kimlərə "xidmət" etdiklərini əvvəllər də nümayiş etdiriblər. Ancaq bu dəfə işğalçıya, terrorçuya haqq qazandırmaqla, dünyanın gözü qarşısında baş verən hadisələrə görə Azərbaycanı ittiham etməklə əsl riyakarlıqlarını ortaya qoydular. Nə yazıq ki, belə riyakarlarımız, xalq düşmənlərimiz də var və indiyədək kimlər tərəfindən "bəslənildikləri" açıq-aşkar üzə çıxır. Nə yazıq ki, "beşinci kolon"un və xaricdəki antimilli şəbəkənin buyruq qulları...Bəli, nə yazıq ki, daxildəki "beşinci kolon"un və xaricdəki antimilli şəbəkənin buyruq qulları - AXCP sədri Əli Kərimli, Sevinc Osmanqızı, Arif Məmmədov, Vidadi İsgəndərli və digər bu kimi ermənidən bətərləri qranta görə hər cürə tüpürcükləri qəbul edirlər. Həqiqətən bu koronavirusdun da qorxulu olan bu virusların içində Azərbaycana nifrət, xalqımıza qarşı kin formalaşıb? Yoxsa, ermənilərin çirkin əməllərinə qarşı çıxanlara, bayrağını qoruyanlara, şəhidini ananlara kim bandit, vətənşüvən deyə bilər?! Azərbaycan xalqı əsl həqiqətlərə şahidlik edi. Hər kəs gördü ki, Sevinc Osmanqızı, Arif Məmmədov, Vidadi İsgəndərli kimi erməni süfrəsinin tör-töküntüləri ilə yemlənənlərdir.

Xəyanət başqa necə olur ki?! Təbii ki, hər kəs bilir ki, bütün bunları onlar sifariş əsasında həyata keçirdirlər. Birbaşa erməni lobbiçilərinin və diasporunun tapşırıqlarını yerinə yetirirlər. Onlara erməni lobbiçilərinin açıq və ya dolayısı ilə göstərdiyi maliyyə dəstəyi hər



kəsə bəllidir. Ancaq insan nə qədər şərəfini və ya ləyaqətini itirə bilər ki, indiki situasiyada öz xalqına və dövlətinə qarşı bu cür iyrənc şər-böhtan atasan?! Ermənidən də artıq erməni olan bu çamurlar...

Görünür, bu çamurlar, Vətəni, torpağı, namusunu, qeyrətini və...əxlaqsız xainlər Şillerin ibrətamiz sözlərindən xəbərsizdir. Xəbərin olsun ay şeytanla iş birliyi quran xəyanətkarlar. Şiller deyirdi ki, "Gücsüzlər neyləyir eləsin, axır yenə güclülərdir qalib gələn". Və bu gün Əli Kərimli, Cəmil Həsənli, Gültəkin hacıbəyli, Sevinc Osmanqızı, Arif Məmmədov, Vidadi İsgəndərli və... kimi vətən xainləri bilməlidirlər ki, Azərbaycanın qalib iqtidarıyla məğlub müxalifətinin əmin-amanlıq içərisində yaşamağı da elə bu iqtidarın təntənəsidir. Sosial şəbəkələrdə Azərbaycanı uğurlarına və qələbələrinə nə qədər böhtanlı çağırışlar etsəniz də, xalq özü sizi dar ağacından asacaq. Çünki 30 illik həsrətə son qoyan, 44 gün ərzində bütövlüyümüzü bərpa edən, Qarabağ Azərbaycanımızdırı özümüzə qaytaran böhtan atdığınız o igid oğullarımız qanları bahasına erməni işğalından azad edərək Şəhilik zirvəsinə qalxıblar.

### Haqq nazilər, amma üzülməz...

Rus yazıçısı Lev Tolstoyun dediyi bu sözləri xatırlatmaq yerinə düşür: "Vətənpərvərlik yaramazların son sığınacaq yerinə çox tez-tez çevrilir". Bütün arqumentləri qurtaran adamlar sadəcə yalan danışmağa, özlərini şəxsi ambisiyaları barədə yox, yalnız xalq, onun rifahı barədə düşünən millət xilaskarı kimi göstərməyə başlayırlar. Təsəvvür edin, özünü əzabkeş, iqtidar tərəfindən təqib olunan biri kimi göstərən müxalifətin satqınlar "sülaləsi" ancaq satqınları müdafiə etməlidir. Bu, təəccüb də doğurmur. Bu erməni lobbisinin antimilli maşası olan tural sadıqlıları, orduxan teymurxanları, məhəmməd mirzəliləri, arif məmmədovları, emin millilləri, qurban məmmədovları, sevinc osmanqızıları, qənimət zahidləri "şəhidlərə dövlətin qayğısı güclü olmalıdır" deyə qışqırırlar. Bax bu yerlə özünü ələ ala bilmirsən: kor olmuş gözlərinə və kar olmuş qulaqlarına qışqırıb bağırmaq istəyirsən: erməni lobbisinin antimilli maşaları - reallıqları görün. Görməyən gözlər görsün, kar qulaqlar eşitsin: Bu gün şəhid ailələrinin problemi dövlətin daima diqqət mərkəzindədir. Elə bu günlərdə, yanvar ayının 25-də imzalanmış "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncam da bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlı olduğunun bariz nümunəsidir. Bu Sərəncam da digər sərəncamlar və fərmanlar kimi Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsində həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir. Bu Sərəncam çoxsaylı ailələrə mənzil ehtiyaclarını qısa zaman kəsiyində ödəməklə onlara böyük sevinc bəxş edəcək, bununla da şəhid ailələrinin sosial müdafiəsi daha da yaxşılaşacaq. Çünki vətəndaş dövlətin arxasında olduğu kimi, dövlət də vətəndaşının arxasındadır.

Və bu gün Vətən daşına dönük çıxanlar hələ də anlamır ki, Vətən millətin doğulduğu, böyüdüyü, sığındığı və maddi-mənəvi varlığını davam etdirdiyi yerdir. Vətən millətin evi, millət də vətəndə yaşayan ailədir. Vətən bizi qoruyan anadır. Çünki biz onun sayəsində inkişaf edir və yetkinləşirik. Vətən gözümüzün dünyada ilk gördüyü torpaqdır. Ancaq özgənin yalı ilə bəslənilərək torpğını, dədə-baba yurdunu satanların, bu Vəninin əldə etdiyi uğurlarına kölgə salmaqdan "həzz" alanların elə yeri o erməni iyi verən zibilliklərdir. Vətəni, torpağı olmayan Avropa zibilliklərində eşələnənlərin Vətəni olmur. Və sizin kimi marginallar unudurlar ki, antiazərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib tula payı almaqla, yallanmaqla heç nəyə nail ola bilməyəcəklər. Və onu da bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır və bağışlamayacaq da!.

***R.HÜSEYNOVA***

## ""5-ci kolon" pisliklərinin qarşılığını görəcək"

"Bütün dünyaya səs salan 44 günlük müharibənin qələbə ilə başa çatması dostları sevindirdiyi kimi, düşmənləri də kədərə və yasa qərq etdi. Təəssüf ki, ölkədə də bu qələbədən sevinməyənlər tapıldı. Onlar pərtliklərini müxtəlif bəhanələr altında gizlətməyə çalışırlar". Bunu SİA-ya açıqlamasında AMİP funksioneri Əli Orucov deyib.

Onun sözlərinə görə, Azərbaycan geopolitik vəziyyəti nəzərə alıb zəfər üçün nə mümkün idi onu da edə bildi: "Bəziləri indi haray-şivən qoparır ki, niyə Xankəndinə kimi gedib erməniləri qovmadıq və s. Nəzərə almaq lazımdı ki, bir sıra böyük güclər heç müharibənin başlamasına imkan vermək istəmirdilər. Azərbaycana Ermənistanın böyük bacısı Fransa, Rusiya və digər xristian Qərb dövlətləri ciddi təzyiqlər edirdilər ki, müharibə dayandırılsın. Lakin Cənab Prezident bu təzyiqlərə baxmadan mümkün olanlardan da artığını etdi. Daxildəki bədxahlar, eləcə də "5-ci kolon" əllərindən gələn pisliklərini etsələr də, bu pisliklərinin qarşılığını görəcəklər. Necə ki, indiyədək belə olub. Xalq belə adamların cavabını özü verib, bundan sonra da verəcək. Biz qalib xalq olaraq bundan sonra böyük qayıdışa hazırlaşmalı və bu çətin məsuliyyətli proseslərlə məşğul olmalıyıq".

***Gülyana***

# Marqarita Simonyan Ermənistan üçün zaman istədi

**"Gəlin xatırlayaq ki, biz 1999-cu ildə necə yaşayırdıq. Axı bu obyektiv faktdır". SİA xəbər verir ki, sözügedən fikirləri erməni mənşəli rusiyalı jurnalist, RT televiziya kanalının baş redaktoru, eləcə də "Rossiya seqodnya" beynəlxalq informasiya agentliyinin və "Sputnik" informasiya agentliyinin baş redaktoru Marqarita Simonyan Solovyovun verlişində çıxış etdiyi zaman Ermənistanın 90-cı illərlə indiki vaxtını müqayisə edərkən bildirib.**

"İndi deyirlər ki, pensiyaların həcmi azdır. Pensiyalar azdır, ancaq düşünərsək ki, zamanında onlar daha az idi", deyən Simonyan bildirib ki, həmin vaxtlarla müqayisədə pensiyalar artdıb və bundan sonra da artacaq.




Simonyan Nikol Paşinyan hakimiyyətinə müxalifləri ittihamh edərək eyham vurub ki, onların əksəriyyəti məhz əvvəlki hakimiyyətlərin adamlarıdır, eyni zamanda məhz onların hakimiyytləri dövründə xalqın vəziyyəti acınacaqlı duruma düşüb, ordu, iqtisadiyyat çöküb, nəticədə müharibə baş verdi və onun nəticəsi də bəllidir.

"Sadəcə ölkəyə zaman vermək lazımdır ki, normal inkişaf etsin. Ümumiyyətlə, pensiyaları ümumiyyətlə vermirdilər. Müəllimlərə həkimlərə məvacib vermirdilər, onun yerinə nə gəldi verirdilər ki, xalq susssun", deyən Simonyan xatırladıb ki, 1999-cu ildə o reportaj hazırlamışdı. "Ordunun vəziyyəti acınacaqlı idi, biz həmin illərdə Krasnodarda orduya humanitar yardım toplayırdıq - qazlı su, zalyonka və isti corablar", deyə o çıxışında xatırladıb və bir daha bildirib ki, ölkəni inkişafdan saxlayan əsas günahkarlar Paşinyanı devirib yenidən iqtidara yiyələnmək istəyən keçmiş hakimiyyət nümayəndələridirlər.

Xatırladaq ki, Ermənistanın sabiq prezidenti Robert Koçaryan ötən həftə verdiyi müsahibəsində "böyük siyasətə" geri döndüyünü açıqlayıb və bildirib ki, növbədənkənar seçkilərdə iştirak etmək niyyətindədir.

Onu da bildirək ki, hazırda Ermənistanda ikiyə bölünmüş cəmiyyət ermənistanlılara və qarabağlılara ayrılıb və Ermənistan erməniləri yenidən Qarabağ klanının hakimiyyət sükanını ələ almalarına imkan verməyəcəklərini deyirlər.

***Rövşən RƏSULOV***

# COVİD-19 pandemiyası ilə mübarizədə Azərbaycan modeli öyrənilir

**Müasir dünyamızı əhatə edən, milyonlarla insanın ağır virusa yoluxmasına, yüzminlərlə insanın ölümünə səbəb olan COVİD-19 pandemiyası ölkələrin ağır iqtisadi, sosial böhranlarla üzləşməsinə səbəb olub. Təbii ki, bu gün koronavirus infeksiyası (COVID-19) bütün dünyada yaşayan insanları narahat edir. Təəssüflər olsun ki, dünyada genişmiqyaslı tədbirlərin həyata keçirilməsinə baxmayaraq, vəziyyəti hələ də tam sabitləşdirmək mümkün olmayıb. Yeni qlobal pandemiya - koronavirus (COVID-19) infeksiyası Yer kürəsini, eləcə də ölkəmizin vətəndaşlarının sağlamlığını təhlükə altına aldığı bir zamanda Azərbaycan Prezident İlham Əliyevin qətiyyətli iradəsi və təşəbbüskarlığı sayəsində ilk gündən ölkəmizdə koronavirusun geniş yayılmasının qarşısını almaq məqsədilə vətəndaşlarımızın sağlamlığının qorunmasına xidmət edən bütün zəruri, qabaqlayıcı addımlar atıldı.**

Dövlət başçısının "Biz birlikdə güclüyük!" çağırışı xalqımızı pandemiyaya qarşı mübarizədə həmrəyliyə səslədi. Ölkəmiz çətin bir zamanda Vətən müharibəsində bir cəbhədə, koronoviruslа digər bir cəbhədə döyüşməli oldu. Bu gün artıq Azərbaycan bir cəbhədən qalib xalq olaraq çıxıb və Zəfərin yazıb. Ali Baş Komandan, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin müdrik siyasəti, xalq-iqtidar birliyi nəticəsində Zəfər tariximizi yazdıq.




### "ARTIQ ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATI "AZƏRBAYCAN MODELİ" HAQQINDA DANIŞIR..."

Dünyanın ən güclü ölkələri belə koronavirus pandemiyasının qarşısında çarəsiz qaldığı halda, dövlət başçısının tapşırığı və sərəncamları ilə təxirəsalınmaz tədbirlər həyata keçirildi və bu davamlıdır. Azərbaycanın həyata keçirdiyi tədbirlər beynəlxalq səviyyədə qiymətini almış oldu. Azərbaycan modeli dünyada öyrənilməyə başlanıldı. Ümumdünya Səhiyyə Təşkilatı buna biganə qala bilmədi. Dövlət başçısını vurğuladığı kimi, "Artıq Ümumdünya Səhiyyə Təşkilatı "Azərbaycan modeli" haqqında danışır, görülən işlərə yüksək qiymət verir, bir neçə dəfə Azərbaycanı nümunəvi ölkə kimi təqdim etmişdir. Eyni zamanda, bu yaxınlarda mənə verilən məlumata görə, dünyanın aparıcı rəy sorğusu şirkəti olan "Gallup" da Azərbaycan vətəndaşları arasında təhlil-rəy sorğusu aparıb. Vətəndaşların 86 faizi dövlətin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirir və bu göstəriciyə görə Azərbaycan dünyada 4-cü yerdədir. Yəni, həm beynəlxalq təşkilatlar, bu sahədə aparıcı təşkilat olan Ümumdünya Səhiyyə Təşkilatı, həm də ölkə əhalisi bizim fəaliyyətimizi yüksək qiymətləndirir".

### "BİZ VƏZİYYƏTİ BÜTÜN DÖVRLƏRDƏ, YƏNİ, BU BİR İL ƏRZİNDƏ NƏZARƏTDƏ SAXLAMAĞI BACARMIŞIQ"

Ölkəmizdə 40-dan artıq xəstəxanada koronavirus xəstələrinə yer ayrıldı. Bu xəstəxanalar Bakıda və regionlarda fəaliyyət göstərir, onlar ən müasir avadanlıqla təmin edilib. Azərbaycan Prezident İlham Əliyev çıxışların birində bildirdiyi kimi, "Biz vəziyyəti bütün dövrlərdə, yəni, bu bir il ərzində nəzarətdə saxlamağı bacarmışıq. Burada əlbəttə ki, yeni laboratoriyaların ölkəyə gətirilməsi xüsusi rol oynamışdır. Çünki pandemiyaya qədər bizdə cəmi 8 laboratoriya var idi və gündə cəmi min test keçirilə bilərdi. Hazırda laboratoriyaların sayı 42-dir və 20 min test keçirilə bilər və bunu biz keçiririk. Bütövlükdə 2 milyon 400 min test keçirilib. Yəni, bu, çox böyük rəqəmdir".

Onu da bildirək ki, pandemiya dövründə modul tipli xəstəxanaların quraşdırılması da önəmli amillərdəndir. Modul tipli 13 xəstəxananın quraşdırılması xəstəliklə mübarizədə əhəmiyyətli rol oynadı. Dövlətimiz həkim çatışmazlığı ilə bağlı problemləri vaxtında həll edərək Türkiyə, Rusiya, İtaliya və Çindən həkim briqadalarının Azərbaycana gətirilməsini təmin etdi.

### "BİZ ARTIQ 4 MİLYON DOZ VAKSİN SİFARİŞ ETMİŞİK VƏ ONLARIN ARTIQ AZƏRBAYCANA GƏLMƏSİ TƏMİN EDİLİB"

Dövlət başçısı tərəfindən pandemiya ilə mübarizədə sistemli tədbirlərin həyata keçirilməsi öz bəhrəsin verir və müsbət dinamika müşahidə olunur. Son günlər yoluxma sayının aşağı düşməsi bunu deməyə əsas verir. Belə ki, son həftələr koronavirus infeksiyasından sağalanların sayında müsbət dinamika hər kəsi sevindirir. Həm ölüm sayları, həm də yeni yoluxma halları azalıb. Bu, hökumətin gördüyü tədbirlərin səmərəliliyini, həm də insanların tələb olunan qaydalara riayət etdiyini göstərir. Bunun davamı olması əhəmiyyətlidir. Ölkəmizdə son vaxtlar yeni növ koronavirus (COVID-19) infeksiyasına gündəlik yoluxma sayının 4 rəqəmlidən 3 və ya 2 rəqəmliyə düşməsi tətbiq edilən məhdudiyyətlərin və vətəndaşların qaydalara məsuliyyətli yanaşmasının nəticəsində mümkün oldu. Amma bu virusun tədricən tamamilə yox olması deyil. Pandemiyanın tamamilə aradan qaldırılması üçün kütləvi immunitetin formalaşması lazımdır və vaksinasiya qaçılmazdır. Artıq Azərbaycanda vaksinasiya prosesinə ötən yanvarın 18-dən başlanılıb və mərhələli şəkildə həyata keçirilir. Bir çox insanlar könüllü şəkildə müraciət edərək peyvənd olunurlar. Ötən müddət ərzində ilkin olaraq tibb işçiləri peyvənd olunub. Fevralın 1-dən isə yaşı 65-dən yuxarı olan vətəndaşların vaksinasiyasına start verilib. Vaksinlərin bir qismi ölkəmizə gətirilib.

Cənab İlham Əliyev bildirib ki, biz artıq 4 milyon doz vaksin sifariş etmişik və onların artıq Azərbaycana gəlməsi təmin edilib, Çin istehsalı olan vaksinlər: "Yanvarın 18-dən başlayaraq Azərbaycanda vaksinasiya başlamışdır. Müqayisə üçün deyə bilərəm ki, Avropa İttifaqında bu, keçən il dekabrın 18-də başlamışdır. Yəni, bir aydan sonra artıq Azərbaycan vətəndaşları bu vaksinləri alırlar, peyvənd olunurlar, əlbəttə ki, bu, vaksinasiya sahəsində də bizim səmərəli işimizin təzahürüdür".

Bu gün ölkəmizdə mərhələli şəkildə təsirli tədbirlər həyata keçirilir və vəziyyət nəzarət altındadır. Epidemioloji vəziyyət dəyərləndirilir, vəziyyətə uyğun olaraq da addımlar atılır və ölkəmizdə yumşaldılma tədbirləri həyata keçirilir. Tədris müəssisələrinin, müəyyən sahələrin fəaliyyəti artıq bərpa olunub. Etiraf edək ki, dünya ölkələri ilə müqayisədə Azərbaycanda vəziyyət yaxşıdır.

Fevralın 1-dən başlayaraq yumşalmadan sonra hər bir vətəndaş bu müsbət dinamikanı qoruyub saxlamaqda məsuliyyətlidir. Bütün qurumlar, müəssisələr, obyektlər hazırlanmış təlimatlara riayət etməlidirlər. Məsuliyyətsizlik, biganəlik, sanitar qaydalara əməl etməmə yoluxma sayının yenidən artmasına səbəb ola bilər.

Vətəndaşlar mövcud qaydalara əməl etməli, mütləq şəkildə tibbi maskalardan istifadə etməli, sosial məsafəni gözləməli və dezinfeksiyaedici vasitələrdən mütəmadi istifadəni unutmamalıdırlar.

***Nəzakət ƏLƏDDİNQIZI***

## ""Beşinci kolon"un məğlubiyyəti qaçılmazdır"



"Azərbaycanın 30 il ərzində dünya güclərinin həll edə bilmədikləri, daha dəqiq desək, həll etmək istəmədikləri Qarabağ problemini cəmi 44 günə həll edə bilməsi dünyada bir şok effekti yaratdı". Bunu "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, cəmi 29 il müstəqillik tarixi olan Azərbaycanın həm hərbi, həm diplomatiya, həm də informasiya savaşında belə bir tarixi uğur qazanacağını heç kim gözləmirdi: "Lakin bu, baş verdi və hələ də ədalətdən dəm vuran bu güclər nələr baş verdiyini anlamaqda zorlanırlar. Erməni lobbisinin təsiri altında gah bu qələbəni Türkiyə hərbi qüvvələrinin zəfəri kimi qələmə verməyə çalışırlar, gah xristian abidələrinin dağıdılması, ermənilərə qarşı etnik təmizləmə həyata keçirilməsi kimi absurd fikirlər səsləndirirlər. Bunlardan istədikləri nəticəni əldə edə bilmədiklərini görüb, içimizdəki bəzi südü haram qüvvələri ələ alıb, daxilimizdə inamsızlıq toxumu səpməyə can atırlar. Təbii ki, bütün xalqlarda olduğu kimi, bizim xalqın da içində zatı-kökü naməlum ünsürlər var və belə ünsürlər bu situasiyadan pul qazanmaq üçün yararlanmağa həvəslidirlər".

T.Novruzov onu da bildirdi ki, xaricdəki Azərbaycan əleyhinə olan qüvvələrin əlində oyuncağa çevrilən belə zatıqırıqlar hər vasitə ilə qələbənin əhəmiyyətini kiçiltməyə, hətta bəzi hallarda həyasızcasına bu zəfəri növbəti diplomatik məğlubiyyət kimi təqdim etməyə can atırlar: "Sonda özlərini rüsvay edəcək bu addımları atanlar özləri də gözəl bilirlər ki, bu fəaliyyətin sonu onların ifşası deməkdir. Ancaq, pul, var, dövlət hərisliyi onları bu reallığı qəbul etməyə imkan vermir. Tam əminliklə deyə bilərəm ki, xalq bu qələbənin son 270 ilin ən böyük qələbəsi, erməni mifinin darmadağın edilməsi kimi dəyərləndirir və düşmənlərin əli ilə yaradılan "beşinci kalon"un məğlubiyyəti də qaçılmaz olacaq".

***Gülyana***

## Erməni məktəbləri şagirdsiz qalır



Bir müddət bundan əvvəl, saxta yolla da olsa, əhali sayını artırmağa çalışan ermənilər Suriyada yaranmış vəziyyətdən yararlanmağa çalışırdılar. Yadımdadır, ermənilərin yalan vədlərinə inanıb İrəvana gələn suriyalı erməni qadınlardan biri, Suriyadan gətirdiyi pulları xərcləyib qurtardıqdan sonra küçələrdə qaldığını, buna baxmayaraq rəsmi erməni rəhbərliyindən heç bir kömək görmədiyini bildirirdi. Maraqlıdır ki, həmin qadın geri qayıtmaq üçün günəmuzd işləyib yol pulu qazanmağa belə hazır olduğunu bildirirdi. İndi düşünürsən, belə olan halda, bu gün erməni rəsmilərinin ölkədən qaçanlara "irad" bildirərək, onların qarşısına sipər çəkmələrinə hansı əsası gətirirlər.

Qeyd edilməlidir ki, bu gün Ermənistanda rəsmilər erməni əmək miqrantlarının artıq ölkə iqtisadiyyatının qeyri-rəsmi növünə çevrildiyini etiraf etməyə məcbur olublar. Amma buna baxmayaraq, bu gün erməni miqrantlarının Ermənistanın ayaqda durmasında göstərdikləri xidmətlər də danılmazdır.

Məsələn, "Erməni Caritacı" xeyriyyə təşkilatının nümayəndəsi Tatevik Bejanyan fərqli illərdə xaricdən əmək miqrantlarının Ermənistana göndərdikləri pul köçürmələrinin ölkə ÜDM-nin təqribən 12-22 faizini təşkil etdiyini bildirir. SİA bu barədə erməni mətbuatına istinadən xəbər verir.

Maraqlıdır ki, erməni rəsmisi Ermənistandan qaçan miqrant axınlarını yalnız iş axtarışı ilə əlaqələndirilmir. O, hətta etiraf edir ki, tanıdığı adamların bəziləri ölkədə babat işlərinin olmasına baxmayaraq, onlar da ölkəni tərk edirlər. Bəs, onda buna səbəb nədir? Erməni qadının fikrincə, insanlar artıq Ermənistanın gələcəyinə olan inamlarını itirməyə başlayıblar. Ölkənin gələcəyinə olan inam itəndə onlar nə özləri, nə də övladları üçün heç bir perspektiv görməməyə başlayırlar. Erməni qadın onu da etiraf edir ki, fevraldan 1-dən etibarən Ermənistanda hava yollarının açılması, təkcə İrəvandakı məktəb şagirdlərinin sayını yarıbayarı azaldıb. Onun sözlərinə görə, vəziyyət o həddə çatıb ki, artıq bəzi məktəb direktorları sinifləri ləğv etmək məcburiyyətində qalacaqlarını elan ediblər, çünki təsəvvür edirsinizmi, bəzi siniflərdə 15 şagirddən 8-i valideynləri ilə ölkədən gedir.

Vəziyyətin baş nazir Nikol Paşinyan tərəfindən təslim sənədinin imzalanmasından sonra başladığını deyən, təşkilat nümayəndəsi, hazırda ölkədəki siyasi vəziyyətin əhalinin axınına ciddi şəkildə təkan verdiyini bildirir. Onun sözlərinə görə, bu gün Ermənistanın varlığı üçün ən ağrılı məsələ, bizim daimi yaşamaq üçün ölkədən gedənlərin sayındakı artıma şahidlik etməyimizdir.

***Ağasəf Babayev***

# Ermənistanda kütbeyin Paşinyandan ağıllı "lider" tapılmır

**İşğalçı ölkədə hakimiyyət böhranı fonunda baş nazir seçkilərinə gizli hazırlıqlar aparılmaqdadır. Sükunətdən fəaliyyətə keçmiş eks-prezident Robert Koçaryanın Moskvadan qayıtmasından sonra Ermənistan müxalifətinin liderləri öz aralarında daha bir görüş planlaşdırırlar.**







Bu məlumatı İrəvanda nəşr edilən "Joxovurd" qəzeti yayıb. Qəzet bildirib ki, eks-prezident Robert Koçaryan bu ilin fevralında Moskvada Rusiya elitasının nümayəndələri ilə ikinci görüş keçirəndən sonra Ermənistana döndəcəyini bildirib: "Müxalifət liderlərinin görüşündə konkret planların Koçaryanın qayıdışından sonra qurulması ilə bağlı müzakirə aparılıb". Deyilənlərə görə, birinci səfərində Koçaryan Moskvadakı siyasi dairələrdən lazımi dəstək ala bilməyib.

Erməni "Teleqram" kanalları isə başqa iddia ilə çıxış ediblər. Onların məlumatına görə, Robert Koçaryan, Serj Sarkisyan və Nikol Paşinyan birincinin Moskvaya səfərindən öncə görüşüblər. Görüşdə əsas müzakirə mövzusu növbədənkənar seçkinin tarixini müəyyənləşdirmək olub.

Həqiqətdən uzaq bu xəbərə təbii ki, Ermənistan cəmiyyətində kimsə inanmaz. Çünki hakimiyyətə iddialı olan bu üç nəfərin birgə oturub məsləhətləşməsi ağlabatan deyil. Ortada arqumentlər var. Nikol Paşinyan hələ də Robert Koçaryanın üzərindən həbs qərarını götürməyib, Serj Sarkisyanı isə həbs etdirməklə hədələyir. Keçmiş prezidentlər kütlə içərisində Paşinyanı yarıtmaz və satqın kimi kəskin tənqid edir, onun dövlət idarəçiliyindən xəbəri olmadığını bildirirlər. Opponentlər arasında bu cür düşmən münasibət çətin ki, onların mehriban mühitdə bir araya gəlməsinə imkan versin. Özü də hakimiyyət məsələsində.

Qeyd edək ki, R. Koçaryanın üzərində həbs var və onun ölkədən çıxışına yalnız məhkəmə icazə verir. Məhkəmənin isə Nikol Paşinyanın razılığı olmadan Koçaryanın növbəti dəfə ölkədən çıxışına izn verməsi mümkünsüz sayılır. Eks-prezident isə elə gülünc bəyanatlar yayır ki, lap bişmiş toyuğun da gülməyi gəlir. Sözlərindən belə çıxır ki, Ermənistana o rəhbərlik etsəydi müharibədə məğlub olmazdı və ermənilər süd gölündə üzərdilər. Təbii ki, ermənilər o qədər də gic deyillər ki, belə ağ yalana inansınlar. Əslində məğlub olan ordu Sarkisyanla onun yaratdığı ordudur.

Hakimiyyətə daha bir iddialı şəxs də meydana çıxıb. Bu, keçmiş müdafiə naziri Seyran Ohanyandır. O, özünü bir qədər müəmmalı aparır. Baş nazir seçkilərinə hansı qüvvənin dəstəyi ilə gələcəyini hələlik açıqlamır. Xatırladaq ki, 44 günlük müharibədə müdafiə qüvvələrini başsız qoyub Şuşadan qorxaqcasına qaçandan sonra onun da reytinqi həddən artıq aşağı düşüb.

Əslində Ermənistan cəmiyyətində bu üç nəfər nüfuzunu çoxdan itirmişdir. Başqa meydan sulayan və o qədər də populyar olmayan namizədlər də var. Məsələn, "Çiçəklənən Ermənistan" partiyasının sədri Qagik Sarukyan, Vazgen Manukyan və Armen Sarkisyan. Bunlarla da bitməyən siyahı uzundur. Bir sözlə, at ilxısı, köpək sürüsü. Ancaq onlar elə xırda fiqurlardır ki, siyasi arenada yalnız mikroskopla görünə bilərlər. Xalqın etimadını qazanan və onu öz ardınca apara bilən lider isə görünmür. Böhran keçirən erməni toplumu hazırda ümidsizliklə bacarıqlı namizəd axtarışındadır. O isə görünmür. Görünən odur ki, bu ölkədə kütbeyin Paşinyandan ağıllısı tapılmır. Onlardan hər hansı birinin Paşinyana qalib gələcəyi inandırıcı deyil, çünki hazırkı baş nazirin mövqeyi hələ möhkəmdir.

***Vəli İlyasov***

## Aram Qabrelyanov: "Bunkerdəki generallara qışqıran Akobyan və oğlunu kim qoruyub?"



Kyaramyan və 30 MTX zabiti bunkerdəki generallara qışqıran Anna Akobyan və onun oğlunu qoruyub, mühafizə ediblər. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə Rusiyalı jurnalist, "İzvestiya" qəzeti redaksiyasının İdarə Heyətinin sədri Aram Qabrelyanov Telegram kanalında yazıb.

"Bir neçə dəfə Anna Akobyan açıq şəkildə generalları danlayıb, təhqir edib, hətta söyüb və onlara qoşunlara rəhbərlik etməyi öyrətməyə qalxıb", deyə Aram Qabrelyanov bildirib.

Qabrelyanov qeyd edib ki, 29 yaşlı Arqişti Karamyan, 30 MTX zabiti ilə Qarabağa gəlib və məlum olub ki, Paşinyan onların qarşısına əsas vəzifə olaraq baş nazir arvadının və oğlunun təhlükəsizliyini təmin etməyi qoyub. Anna Akobyanın şəxsi müdafiəsinə əlavə olaraq, başqa 10 nəfər silahla tam təchiz olunmuş xüsusi qüvvə cəlb edilib. O, vurğulayıb ki, Qarabağda xüsusi təyinatlılar belə Akobyanı müdafiə etməyə göndərilən MTX zabitlərinin necə və hansı silahlarla təchiz olunduğuna təəccübləniblər. Qabrelyanov daha on nəfərin də Paşinyanın oğlunu qoruduğunu qeyd edib.

***İnam Hacıyev***

## Erməni politoloq: Ermənistanı beynəlxalq arenada sayan yoxdur



"Baş nazir Nikol Paşinyanın reytinqi əhəmiyyətli dərəcədə aşağı düşüb". Bunu erməni politoloq Qagik Qambaryan deyib.

"İqtidarda olanlar nə fikirləşirlər? Bəlkə düşünürlər, Azərbaycana 12 min kvadrat metr ərazinin təhvil verilməsini hamı sevinclə qarşılayacaq? Onların toxunulmaz olduqlarını kim söylədi? Satqın Nikola və onun komandasına inamın, rəğbətin azalması gerçəklikdir. Əgər erməni xalqı seçkilərdə səslərinin 70%-ni təslim olan liderlərinə verəcəklərsə, bu o deməkdir ki, onlar müstəqil dövlətə layiq deyillər. Çünki Ermənistanda baş verənlər absurd janrdadır. Belə bir vaxtda da kapitulyasiyaya imza atan adam öz postunda qalmağa cəhd edir".

Politoloqun sözlərinə görə, Paşinyan xarici siyasətdə "kənarlaşdırılmış" vəziyyətdədir: "Paşinyan xarici siyasətdə "kənarlaşdırılmış" vəziyyətdədir. Qazaxıstanda yalnız baş nazirlə görüşə bildi. Başqa ölkələrin nümayəndələri ilə heç bir görüş olmadı. Çünki heç bir lider təslim olan kapitulyantla görüşmək istəmədi. Ermənistanı beynəlxalq arenada da sayan yoxdur".

# "Böyük siyasətə" "böyük ideallar"la dönən Köçəryan...

**Bu gün Ermənistanda hakimiyyətə gəlmək arzusunda olanların bəzisi özlərini ölkənin "vətənpərvər"i kimi gözə soxmağa çalışsalar da, Robert Köçəryan kimi bəzisi "vətənpərvər" sipəri altında özünü Rusiya tərəfindən himayə edildiyini gizlətməyə çalışır. Maraqlıdır ki, bu gün bəzi rəqiblərindən fərqli olaraq Rusiyada özünə qahmar axtaran Köçəryanın şanslı olduğu düşünülsə də, bu, Ermənistanda bəzilərinə ilğım təsiri bağışlayır.**



Yadınızdadırsa, bir müddət bundan əvvəl "İzvestiya" qəzetinin direktorlar şurasının sədri Aram Qabrelyanovun Köçəryan haqqında dedikləri, onu ermənilərin xilaskarı qismində görməsi ölkədəki ermənilər tərəfindən birmənalı qarşılanmamışdı. Belə ki, İrəvan erməniləri Qabrelyanova "...kaş ki, Robert Köçəryanın timsalında revanşistlərin mənafeyini müdafiə etdiyi qədər ermənilərin maraqlarını da qoryaydın" səpkili bir mesaj da göndərmişdilər. Bu gün Ermənistanda hakimiyyətə gəlmək istəyən erməni siyasətçilərlərin bəzisi Vladimir Putinin "...böyük siyasətdə, əslində, dost yoxdur" tezisini əsas tutaraq Köçəryanın məhz Kremilin köməyi ilə hakimiyyətə gəlmək arzusunun elə də real ola bimməməsi ilə təskinlik tapırlar.

Amma bunula belə, Robertə Moskvaya getməsi üçün icazə verdiyinə görə Nikolu "qınayanlar" da var. Hətta bəziləri Paşinyanın bu əməlini onun siyasətdəki naşılığı ilə əlaqələndirirlər. Onların fikrincə, bu gün Nikolun hakimiyyəti üçün ən böyük problemi, məhz Robert Köçəryanın özüdür.

Əslində, bunu Paşinyan üçün təhlükə də adlandırmaq olar. Çünki Rusiya səfərindən qayıdan Robert Köçəryan artıq böyük siyasətə qayıtdığını bəyan edib. Qeyd edilməlidir ki, bu gün Ermənistanda çoxları sabiq prezidentin "məxməri inqilabçıları" devirərək, yenidən dövlət başçısı kürsüsündə oturmaq arzusunda olduğunu artıq müşahidə etməyə başlayıblar.

Amma məsələnin maraqlı tərəfi də var. Təsəvvür edin, sabah hakimiyyətə gələn Robert Köçəryan xalqa nələr verəcək Çoxları, haqlı olaraq, Köçəryanın xalqa, istəsə belə, heç nə verə bimәyəcəyini düşünürlər. Doğru da düşünürlər. Məgər hakimiyyətə gələn Robert Qarabağa geri ala biləcək? Bu gün Ermənistandakı dözülməz həyatdan bezib ölkədən qaçan yüz minlərlə mühacir yenidən ölkəyə qayıdacaq? Təbii ki, yox! Çünki onların əksəriyyəti elə Köçəryan və Sarkisyanın hakimiyyəti dövründə Ermənistandan qaçanlardır və çətin ki, indi onlar Ermənistana qayıdıb bütün bu dəhşəti yenidən yaşamaq istəsinlər.

Bəlkə, Robert vaxtilə elə onun özünün də barmaq batırıb taladığı ölkə xəzinəsini bərpa edəcək? Təbii ki, bu da yox! Çünki o da həmkarı Serj Sarksiyan kimi, oğurladıqlarını çoxdan yebəyer edib. Bəs onda Köçəryan hakimiyyətə gələcəyi təqdirdə xalqına nə vəd edir?

Təbii ki, Rusiyanın timsalında qəyyum! Robertə görə, Rusiya ilə tam inteqrasiya, geopolitika baxımından Ermənistan üçün bir çox üstünlüklər təmin edir. Dünyanın bölgələndiyini, qlobal proseslərin bəzi regional inteqrasiya prosesləri ilə əvəzləndiyini bildirən Köçəryana görə Ermənistan Rusiya ilə daha dərin qarşılıqlı əlaqəni çox ciddi şəkildə düşünməlidir.

Əslində bu da başa düşüləndir. Dəxli yoxdur, erməni olmursan, kim olursan ol, Rusiyanın dəstəyini ödəməlisən. Bu, ölkənin dövlət müstəqilliyini itirmək bahasına olsa belə.

Maraqlıdır, sadalanan "ciddi inteqrasiya"lar Ermənistanın Rusiya tərəfindən artıq tam mənimsənilməsi deyilmi? Belə olan halda, Robert Köçəryanın böyük siyasətə qayıtmasının Ermənistan üçün elə də bir önəmi yoxdur. Bu da ermənilərin gəldiyi qənaətdir.

***Ağasəf Babayev***

TƏRS BAXIŞ

# Cəbhəçilər erməni vandalizmini belə inkar etdilər

## Yaxud Liviya səfiri ilə Britaniya səfiri arasında ayrıseçkilik etməyin açıq məqsədi




***Bəlli olduğu kimi, ötən həftə xarici səfirlik nümayəndələri və diplomatlar növbəti dəfə işğaldan azad olunmuş ərazilərimizə səfərləri baş tutub və onlar bir daha erməni vəhşiliyinin, vandallığının şahidlərinə çevriliblər. Diqqət çəkən məqamlardan biri isə belə bir mühüm tədbirlə bağlı, hətta xarici informasiya məkanlarında məlumatların yer almasına rəğmən, özlərini "azərbaycanlı" adlandırıb, düşmən maraqlarına işləyənlərin, ümumiyyətlə, bu məsələyə maraq göstərməmələri, təbliğatını aparmamaları, sosial şəbəkələrdə yaymamalarıdır.***

### Bu fakt nə AXCP sədri Əli Kərimlinin, ya da onun Fransada oturub hələ də erməni maraqlarına nökərçilik edən baş mirzəsi Qənimət Zahidin veclərinə olmayıb

Xüsusilə sözügedən səfər çərçivəsində liviyalı diplomat Əşrəf Adəmin Zəngilanda ermənilər tərəfindən tamamilə dağıdılmış və donuz saxlanmış məsciddə namaz qılması sosial şəbəkə istifadəçiləri və xalqımız tərəfindən böyük diqqətə səbəb olsa da, bu fakt nə AXCP sədri Əli Kərimlinin, ya da onun Fransada oturub hələ də erməni maraqlarına nökərçilik edən baş mirzəsi Qənimət Zahidin, həmçinin də trollarının veclərinə olmayıb. Halbuki, hazırkı dövrə qədər bu adamlar ümumiyyətlə heç bir milli-mənəvi dəyərlərin, milli düşüncənin müdafiəsinə qalxmayıblar, əksinə bacardıqları qədər həmin dəyərləri öz kirli siyasi oyunlarının güdazına veriblər. Beləliklə, liviyalı səfirin dağıdılmış məsciddə namaz qılması faktı bu ünsürlərin necə deyərlər, bir tüklərini olsa belə tərpətməyib.

### Sözügedən ünsürlər ermənilərə bu qədərmi sadiqdirlər?

Yeri gəlmişkən, diqqət çəkən məqam da məhz budur ki, Azərbaycan müsəlman ölkəsi olaraq həm də dünyaya öz tolerantlığı ilə nümunə etalonu kimi təqdim edilməkdədir və bu etalon bir çox mərkəzlərdə yüksək dəyərləndirilir.

Ancaq o da sirr deyil ki, Qərb siyasi dairələrində bütövlükdə islamafobiya adlandırılan bir reallıq da var və Azərbaycan da zaman-zaman bu zərərli baxışların hədəfinə tuş gəlib. Lakin məsələ heç bunda da deyil...

Məsələ ondadır ki, AXCP sədri Əli Kərimli başda olmaqla, Qənimət Zahid və onların trolları Liviyadan olan diplomatın dağıdılmış Zəngilan məscidinin xarabalığında qıldığı namazın şəklini deyil, Britaniya səfirinin paylaşımını ictimailəşdiriblər. Bu zaman həmin məsələdən hansı nəticəni çıxarmaq olar? Yaxud, niyə məhz Brtitaniya səfirinin paylaşımı ön götürülüb? Erməni vandalizminə dair niyə tənqidi status yazmadılar? Və ya sözügedən ünsürlər ermənilərə bu qədərmi sadiqdirlər?

### Ən azından, bilməyənlər də bu quyruqbulayanların hansı yuvanın quşları olduqlarını öyrənmiş oldular

Məsələ bəlli, sualların da cavabı məlumdur zatən. Yəni bu ünsürlər açıq-aydın Britaniya səfirliyinin etimadına daxil olaraq demək istəyiblər ki, "görürsünüzmü, biz - "ana müxalifət" olaraq, sizinlə əməkdaşlıq etmək marağındayıq və hər addımınızı bölüşür, paylaşırıq və s".

Bəli, bunlara erməni vandalizmini bütün çılpaqlığı ilə ortaya qoyan və ürəkləri donduran faktı təbliğ etmək sərf eləmir. Bunlar üçün ümumiyyətlə, dini, milli, mənəvi məsələlər yaddır, yaxın olanı isə, sözün əsl mənasında, Qərb səfirliklərinin qarşısında bacardıqları qədər çox quyruq bulamalarıdır Belə olmasa idi, ən azından, heç bir ayrıseçkilik salmadan Liviyadan olan səfirin dağıdılmış məscidin mehrabı qarşısında namaz qılmasını əks etdirən fotosunu da paylaşardılar. Amma bunu etmədilər və nə yaxşı ki, etmədilər də. Ən azından, bilməyənlər də bu quyruqbulayanların hansı yuvanın quşları olduqlarını öyrənmiş oldular...

*Rövşən RƏSULOV*

# "Nar" karantin rejimi müddətində müştərilərinin sorğularını operativ şəkildə cavablandırıb

**Koronavirus infeksiyasının yayılması ilə əlaqədar tətbiq edilən karantin rejimi müddətində "Nar" müxtəlif kanalları vasitəsilə gücləndirilmiş rejimdə abunəçilərinə xidmət göstərib. 2020-ci il ərzində 777 Çağrı Mərkəzinə 2,5 milyondan çox sorğu daxil olub və onlara ortalama 20 saniyə ərzində cavab verilib. Qeyd edək ki, Çağrı Mərkəzinə zəng etmiş abunəçilərin 85%-i göstərilən xidmət səviyyəsini yüksək qiymətləndirib. Abunəçi sorğularının ilk zəngdən həllini tapması üzrə "Nar" Çağrı Mərkəzi 93%-lik yüksək göstəriciyə nail olub.**




"Nar+" tətbiqinin onlayn çat xidmətinə 1 il ərzində 195 mindən artıq sorğu daxil olub. Tətbiq bir çox mühüm əməliyyatları saniyələr içində yerinə yetirməklə yanaşı, daxil olan sorğuları dərhal cavablandırır. Bundan başqa "Nar"ın rəsmi "Facebook", "İnstagram" və "Twitter" səhifələri vasitəsilə 205 mindən çox abunəçinin sorğusuna dərhal cavab verilib.

Xüsusi karantin rejimində abunəçilərə evlərini tərk etmədən "Nar" mərkəzlərindəki bir çox xidmətləri təqdim edən "Səyyar Nar" vasitəsilə 400-ə yaxın müştəriyə birbaşa ünvanlarında xidmət göstərilib. Qeyd edək ki, abunəçilər evlərini tərk etmədən SIM kartın dəyişdirilməsi, nömrə bərpası əməliyyatları, ASAN İmza xidmətinin aktiv edilməsi və digər xidmətlər üçün "Səyyar Nar"a müraciət edə bilərlər. narsim.az vebsaytı üzərindən isə 7500-də artıq abunəçi almaq istədikləri nömrəni seçib evə çatdırılma xidmətindən yararlanıb.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Daha "QUDALAR KABİNETİ" də olmayacaq

Prezident İlham Əliyevin başlatdığı siyasi, iqtisadi və sosial islahatları ilə yanaşı, həm də kadr islahatlarını qətiyyətli və ardıcıllıq mexanizmləri ilə reallaşdırması, xüsusilə köhnə nomenklaturaya mənsub, daha doğrusu "kontor idarəçiliyi" deyilən vasitəni kökündən yığışdırması prosesini uğurla davam etdirməsi sadə vətəndaşlarda yeni ümid çıraqları yandırmağa başlayıb. Korrupsiyaya və rüşvətxorluğa bulaşmış dövlət məmurlarının həbsləri, onların qanunsuz əməllərinin ifşası həm də digər amilləri - məsələn, vətəndaşa yuxarıdan aşağıya baxmaq kimi stereotipləri də aradan qaldırmaqdadır. O cümlədən, hələ illər əvvəl, yəni çoxşaxəli islahatların anonsu verilərkən, dövlət başçısının xəbərdarlıq qismindəki "qudurğan məmurlar" ifadəsi insanlarımızda belə qənaətə gəlməyə zəmin yaratdı ki, artıq heç nə əvvəlkilər tək olmayacaq, yavaş-yavaş hər şey öz yerini tutacaq. Artıq kifayət qədər icra başçıları, dövlət qurumlarında yüksək postlar tutmuş vəzifə sahibləri qanunsuz əməllərinə görə qanun qarşısında dayanıblar və bu proses necə deyərlər, tam sürəti ilə davam etdirilməkdədir. Bu gün "Hakimiyyətin mənbəyi xalqdır" Ana Yasasının baş ifadəsi öz yerini möhkəmləndirir, yaxud dövlət başçısı bu ifadəni əsas gətirərək, xalqın marağının qorunması, müdafiə edilməsi istiqamətində qəti addımlarını atmaqda davam edir.

Lakin növbəti bəlli faktlardan biri də budur ki, qeyd edilən yanlış stereotiplərin məhv edilməsi prosesi ilə yanaşı, daha bir xoş olmayan reallıq da yox olmaq üzrədir - misal üçün, yüksək vəzifəli məmurlar arasında qurulan və əslində, heç bir gerçək səmimiyyətə söykənməyən qohumluq bağları. Belə qohumluq bağları, əsasən, qudalıq prinsipi üzərində qurulsa da, burada əsas məqsədin iki ayrı-ayrı qurumlara rəhbərlik edən şəxslərin müştərək şəkildə sui-istifadə maraqları dayanmaqdadır. Daha dəqiq desək, ailə biznesinin inkişafı. Diqqət edin, dövlətin, xalqın marağı deyil, məhz ailə biznesinin inkişafı. Halbuki...

Halbuki belə məmurlar da zamanında sadə xalq içindən çıxanlardır və necə deyərlər, onların ata-babalarından heç birinə zəngin miraslar da qalmayıb. Sadəcə, onlara nə zamansa etimad göstərilib və onlar da bu etimadlardan izafi qaydada sui-istifadə edərək xalqın, dövlətin cibindən yeyərək varlanıblar və olublar varlı məmur! Üstəlik, talançılıqla, korrupsiya və rüşvət hesabına özlərinə bizneslər qurub, sonradan həmin bizneslərini yuxarıda da qeyd edildiyi kimi, "övladlarını evləndirmək" sayəsində birləşdiriblər. Demək ki, bir güllə ilə iki dovşan vurmaq məsələsi kimi - həm dövlətin etimad göstərdiyi vəzifələrdən sui-istifadə olunub, həm də yeyilən, talanan dövlət pulları qanunsuz biznes şəbəkələrinin qurulmasına xərclənib. Sadə vətəndaşın problemi, sosial tələbləri isə atılıb tamamilə arxa plana. Bəs bundan hansı fəsadlar doğur? Əlbəttə ki, xalqı dövlətdən narazı salan məqamlar! O dövlətdən ki, yalnız xalqı düşünür, o hakimiyyətdən ki, xalqın sosial, iqtisadi maraqlarının təminatı ətrafında proqramlar təsbit edir, o iqtidardan ki, məqsəd və məramı yalnız və yalnız yüksək həyat, yüksək yaşam prinsipini tətbiq edərək, xalqı üçün çalışır, fəaliyyət göstərir. Bəs buna daha hansı adı vermək olar? Cavabı bəsitdir və yumşaq ifadə edərsək, bu addımlara birmənalı olaraq dövlətə, xalqa və Prezidentin etimadına qarşı xəyanət adını vermək mümkündür!

Belə ifadələrdən biri də sadə xalq arasında "qudalar kabineti" adlandırılır və mən burada heç də vəzifəli şəxslər arasında evlilik qohumluqlarının əleyhinə çıxış etmirəm, sadəcə demək istəyirəm ki, dövlətə etdikləri xəyanəti də daxil olmaqla yanaşı, heç də səmimi olmayan "qudalıqları" vasitəsi ilə öz doğmaca övladlarının həyatlarını, gələcəklərini puç etmirlər. Amma kimə deyirsən ki? Belə bir söz var e, "pul gözünü örtüb", bax, həmin məmurların gözlərini pul-para, daha çox qazanmaq, daha çox dövlətdən oğurlamaq, daha çox vətəndaşa yuxarıdan aşağıya baxmaq kimi pisliklər örtüb, örtdükcə isə onları hətta qarşıda gözləyən aləhəzrət qanunlar da qorxutmur. Bu qədər həbslər, bu qədər ifşalar hələ də bəzi məmurları düşünməyə, özlərinə "mən nə edirəm?" sualını verməyə sövq etmir. Halbuki düşünməyə məcburdurlar, hər saatında, hər dəqiqəsində, hər saniyəsində! Çünki onlar heç də xalqın ağası, xozeyinləri deyillər, onlara bu ixtiyarı da kimsə verməyib, ona görə də, Prezidentin vurğuladığı kimi, dövlət məmurları vətəndaşın xidmətçiləridirlər, bunu da unutmamalıdırlar. Daha "qudalar kabineti" deyilən ifadə də leksikonumuzdan çıxarılmalı, nəhayət, gecə-gündüz xalq üçün, dövlət üçün çalışılmalıdır, azad edilmiş Qarabağda "regional mərkəzlər" tikdirib, sonradan onu özəlləşdirmək kimi ürəkbulandırıcı "planlar" da, bir neçə ildən-bir "yeni inzibati bina" inşaları adı altında milyonları qatlayıb-ciblərə, bank hesablarına doldurmaq, yaxud ölkədən xaricə çıxarmaq kimi xəyanətkar maraqları da atılmalıdır bir kənara. Əks halda, aparılan islahatların sərt üzü onlara tərəf də çevriləcək. Necə ki, vaxtilə bir yerdə düzənlədikləri cah-cəlallı, pullu-paralı kef məclislərində onlarla bir yerə əylənən, indi isə dörd divar arasında "xəstəliyi səbəbindən ev dustaqlığına" çıxmaq istəyən sabiq məmur dostlarına tərəf çevrildiyi kimi...

# Sahibsiz uşaqlar problemi: necə həll edilə bilər?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması” istiqaməti çərçivəsində hazırlanıb*

**Küçə uşaqlarının və internat məzunlarının sonrakı taleyi cəmiyyətdə narahatlıq doğurur, lakin bu problem hələ də həll olunmayıb**

Hazırda ölkəmizdə 1,5 milyondan artıq uşaq var. Qeyri-rəsmi məlumata əsasən isə, 50 mindən çox sahibsiz uşaq var. Son illərdə görülən tədbirlər nəticəsində onların təxminən yarısı uşaq evlərinə və internatlara verilib. Bununla bərabər küçədə yaşayan uşaqlar da var. Onlar müxtəlif işlərlə məşğul olur- səyyar satış, təmizlik işləri, kuryer və s. Bu problem hələ də tam həll olunmadığından ciddi tədbirlərə ehtiyac var.

### İnternat uşaqlarının sayı niyə artır?

Demək olar ki, dünyanın hər bir ölkəsində uşaq evləri var. Bu internatlarda valideyn qayğısından uzaq, tənha və sahibsiz körpə və yeniyetmələr tərbiyə alır. Dünya ölkələrində övladsız olan, həyatı boyunca övlad sevgisi ilə alışıb-yanan valideynlər də var.

Düzdür, bəzi uşaqlar kimsəsizlər evinə hər hansı qəza nəticəsində valideynlərini itirdiyi üçün düşüblər, amma bu göstərici o qədər də deyil. İnternatlarda məskunlaşan uşaqların çox hissəsi valideynləri tərəfindən bilərəkdən atılmışlardır. Fərqi yoxdu, istəyərək və ya istəməyərək, valideynlər öz uşaqlarını günü bu gün də internata verməkdə davam edirlər. Səbəblər isə müxtəlifdir.

İnternatlarda əvvəllər atasız-anasız, kimsəsiz uşaqlar yaşayırdısa, indi atalı-analı uşaqlar əksəriyyət təşkil edir. Bəzi valideynlər bunu yoxsulluqla, bəzi valideynlər də (tək ata və ya tək ana) tərbiyə etmək çətinliyi ilə əlaqələndirirlər. Daha çox səbəb kimi isə valideynlərin kasıb olması göstərilir. Bununla belə, internata verilən uşaqlar sırasında davranışı pozulan və valideyni öhdəsindən gələ bilməyənlər də var.

Elə valideynlər də var ki, uşağı onlara verməkdənsə, elə internatda saxlamaq daha düzgündür. Yəni, araşdırmalardan sonra bəlli olur ki, həmin ailə uşaq tərbiyə etmək qabiliyyətində deyil. Belə hallarda məhkəmə yolu ilə həmin valideynlər ata-analıq hüququndan məhrum edilirlər.

Elə bunların nəticəsidir ki, internatda yaşayan uşaqların sayı ilbəil durmadan artır. Statistik məlumatlara görə, bu il internat sakinlərinin sayında öncəki illərdən fərqli olaraq xeyli artım var. Bu uşaqları övladlığa götürmək istəyən ailələr olsa da onların sayı çox azdır. Bundan başqa, övladlığa götürmə şərtləri çox və çətin olduğundan bəzi uşaqsız ailələrin bu istəyi reallaşmır.

Onu da qeyd edək ki, ölkəmizdə xarici vətəndaşlara övladlığa uşaq verilməsi qadağan olunub. Çox güman ki, bunun səbəbi əcnəbilərin uşaqları övladlığa götürərək istismara məruz qoymasıdır. Belə hadisələrin baş verməsi faktları mediada tez-tez üzə çıxarılır.

Ekspertlər internat həyatının azyaşlıların psixologiyasına mənfi təsir etdiyini bildirirlər. Bu səbəbdən onların ailələrə verilməsini vacib hesab edirlər.

### “Uşaqların küçədə böyüməsindənsə internatda tərbiyə almaları yaxşıdır”



Sağlam Cəmiyyət Hərəkatının eksperti Nübar İsmayılovanın fikrincə, uşaqların internatlarda yaşaması onları qeyri-təbii vəziyyətdə böyümək məcburiyyətində qoyur: “Nəticədə uşaqların həyata baxışlarında, xarakterlərində mənfi çalarlar özünü büruzə verir. Belə ki, bu uşaqlar adi ailələrdə yaşayanlardan fərqli olaraq daha tez konfliktlərə qoşulur, pis vərdişlərə daha tez meyillənir, rəhmsiz olurlar.

Bu uşaqlara həyatın çətin anlarında dayaq olan, məsləhət verən doğma valideynlərinin olmaması onların hər hansı bir həyati qərarı öz düşüncə tərzi ilə qəbul etməsinə səbəb olur. Adətən, belə uşaqlar özlərini tək hiss edir, yalnız özlərinə güvənməyə çalışır, bütün problemlərinin həllinə özləri cəhd göstərirlər. Bu da səhv yola düşmələrinə gətirib çıxarır”.

Ekspert internat uşaqlarının müsbət cəhətlərinin olduğunu da dedi: “Hesab edirəm ki, uşaqların küçədə böyüməsindənsə internatda tərbiyə almaları daha yaxşıdır. Pis-yaxşı internatda təhsil, tibbi xidmət, yeməklə təminat, tərbiyə var. Amma qeyd edim ki, qanunların pozulduğu, özbaşınalığın hökm sürdüyü internat evləri də mövcuddur və burada uşaqları döyülərək işgəncəyə məruz qalması barədə yetərincə fakt var. Uşaqları dərs oxumağa yox, evinə aparıb şəxsi təsərrüfatında işləməyə təhrik edən internat rəhbərləri haqda ciddi ölçü götürülməlidir”.

### İnternatlar ləğv olunsun, yoxsa yox- Fərqli rəylər var

Pedaqoq İbrahim Cəfərov isə deyir ki, xarici dövlətlərdə internat məktəblərinin ləğv edildiyi bir dövrdə Azərbaycanda, əksinə, bu cür müəssisələrin sakinlərinin sayında artım var: “Qeyd edim ki, son dövrlərdə internatların ləğvi, internatlardakı uşaqların ailələrə verilməsi ilə bağlı proqram həyata keçirilir. İnternatlara külli miqdarda maliyyə tələb olunur. Ancaq dövlət uşaqları ailələrə verərsə, həmin ailələrə müəyyən məbləğ ödənilər. Nəticədə həmin uşaqlara ailələrdə daha yaxşı tərbiyə verilə bilər”.

Ekspert deyir ki, bəzi internatlarda uşaqlar istismar edilir- dilənməyə, pul qazanmağa və sair pis əməllərə sövq edilirlər: “Elə internatın ləğvinin ləngidilməsinə də səbəb bu kimi amillərdir. Çünki internatların ləğvi ilə burdan qazanc mənbəyi kimi istifadə edənlər həmin məbləğdən məhrum ola bilərlər”.

Lakin Azərbaycan Uşaqlar Birliyi uşaq evlərinin bağlanılması təklifinə qarşı çıxır. Təşkilatda hesab edirlər ki, uşaq evlərinin bağlanması sahibsiz uşaqların sayının artmasına səbəb ola bilər. Çünki bu gün diqqətdən kənarda qalan, sahibsiz yüzlərlə uşaq var. Uşaq evləri qapadılandan sonra onların sayı artacaq. Buna görə də, ilk növbədə, ailələrin sosial problemlərinin həlli istiqamətində tədbirlər müəyyənləşdirilməlidir. İnternatları bitirən uşaqların mənzil, iş problemləri həll edilməlidir.

Təşkilat hesab edir ki, uşaqların ailələrə verilməsi proqramı azyaşlıların problemlərini həll edə bilər. Lakin bu proqramın tətbiqi uşaq evlərinin bağlanılması kimi qiymətləndirilməməlidir. Əksinə, uşaq evlərindəki uşaqların problemlərinin həllindən söhbət gedə bilər. Problemlər həll ediləndən sonra uşaq evlərinin bağlanılması tədricən, mərhələlərlə baş tuta bilər.

### Sahibsiz uşaqlar arasında qanun pozuntularının sayı artır

Bəzi hesablamalara görə, Bakıda indi təxminən 1000 nəfər civarında “küçə uşağı” var. Həmin uşaqlar üçün şəhər küçələri evlərini əvəzlədiyindən, onlar küçədə durur, küçədə işləyir, küçədə əylənir və elə küçədə də yatırlar.

Bakı küçələrində indi maşın pəncərələri silmək, bazarlarda yük daşımaq, kiçik ticarətlə məşğul olmaq kimi işlər görən azyaşlılar arasında cinayətkarlıq halları həndəsi silsilə ilə artmaqdadır. Onlar çeşidli “biznes”lə məşğul olurlar. Kimi qəzet satır, kimi telefon kartı, kimi də günəbəxan tumu və ya qazlı su...

Bu uşaqların arasında müxtəlif xəstəliklər yayılır. Bakıdakı küçə uşaqlarının təxminən 50%-də müxtəlif ağır xəstəliklər var. Revmatizm, vərəm, mədə yaraları, dəri xəstəlikləri bu qəbildən daha çox yayılmış xəstəliklərdir.

Qeyri-hökumət təşkilatlarının apardığı araşdırmalara görə, Bakı küçələrində “işləyən” uşaqların hər 10 nəfərindən 6-sı artıq spirtli içkilərin nə olduğunu bilir, 8-i siqaret çəkir, 4 nəfəri isə oğurluğu qəbahət saymır. Son dövrlərdə Bakıda azyaşlı sahibsiz uşaqlar arasında qanun pozuntularının sayı artıb.

İnternat məktəblərin məzunları arasında artıq “kriminal avtoritet”lər peyda olmaqla bahəm, onların törətdikləri cinayətlərin arasında da xüsusilə ağır halların sayı da yüksəlir. “Küçə uşaqları” arasında həyatlarına son qoyanlar da var.

### Uşaq kəndlərinin yaradılması problemdən çıxış yolu ola bilərmi?

Kimsəsiz uşaqların normal ailə əhatəsində böyüməsi və tərbiyə alması üçün ölkəmizdə uşaq kəndləri salınıb. Valideyn himayəsindən məhrum olan, kimsəsiz uşaqlar üçün yaradılan bu kəndlərdə 10-12 ailə məskən salıb. Bu kəndlərdə uşaqlar xüsusi seçilmiş anaların yanında qalır.

Onlar özləri öz evlərinə rəhbərlik edəcəklər, amma tam nəzarətsiz də qalmayacaqlar. Bu gənclərə müəyyən miqdarda maliyyə yardımı ediləcək. 20 yaşına çatandan sonra isə bu gənclər yarımüstəqil həyata qədəm qoyacaqlar, yəni onlara 3 il ərzində də maliyyə yardımı göstəriləcək. İndi dünyanın 130-dan artıq ölkəsində belə uşaq kəndləri fəaliyyət göstərir.

İnternat məktəblərdə yaşı 18-ə çatmış uşaqların xaric edilməsi, onların uzun müddət adaptasiya ola bilmədikləri cəmiyyət həyatında problemlər yaradır. Acınacaqlı haldır ki, internat qızlarının əhəmiyyətli bir hissəsi fahişəliyə sürüklənir, oğlanlar isə cinayətkar aləmin toruna düşürlər. Belə yeniyetmələr iş, mənzil problemlərini həll edə bilmədiklərindən başqa yol görmürlər.

Bu probemlə bağlı aidiyyatı orqanlar tərəfindən müəyyən tədbirlər hazırlanıb həyata keçirilir. Lakin hələlik bu, o qədər də effekt vermir.

Ümumiyyətlə, uşaq problemlərinin daha çox gündəmə gətirilməsinə və bu sahədə problemlərin həllində dövlət və qeyri-hökumət qurumlarının fəaliyyətinin gücləndirilməsinə ehtiyac var. “Uşaqlar gələcəyimizdir”- deyirik. Gələcəyimizi qorumaq bütün cəmiyyətin ümdə vəzifəsidir. Bu, həm də bir müqəddəs borcumuzdur, o borc ki, onu yerinə yetirməyə məhkumuq. Gələcəyimiz naminə...

***Lalə Mehralı***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

SƏS

QARABAĞ AZƏRBAYCANDIR!

9 fevral

# Edina futbol tarixinə düşdü



Braziliyalı Edina Elves Batista FİFA-nın bayrağı altında kişilər arasında keçirilən oyunun baş hakimi olan ilk qadın referi kimi tarixə düşüb. Qol.az-ın xəbərinə görə, o, Qətərdə təşkil olunan klublararası dünya çempionatının "Ulsan Henday" - "Əl Duhayl" görüşünün (1:3) referisi olub. Ona həmyerlisi Neuza Bak və Argentinadan Mariana de Almeyda kömək edib.

Qeyd edək ki, daha öncə UEFA bayrağı altında keçirilən Çempionlar Liqasının "Yuventus" - "Dinamo" (Kiyev) görüşündə fransalı qadın referi Stefani Frappar fit çalıb.

# Messi şəxsi rekordunu yenilədi

**"Barselona" futbol klubunun kapitanı Lionel Messi yeni şəxsi rekordunu müəyyənləşdirib. Belə ki, 33 yaşlı hücumçu buna La Liqanın 22-ci turunda "Betis"lə matçda (3:2) imza atıb. O, meydana daxil olduqdan 136 saniyə sonra fərqlənməyi bacarıb. Bu, La Liqada Messinin ehtiyyatdan meydana çıxdıqdan sonra vurduğu ən sürətli qoldur.**

Ümumilikdə isə argentinalı futbolçu karyerası ərzində sonradan matça daxil olduqdan sonra toplam 27 qol vurub. Qeyd edək ki, Messi bu mövsüm ümumilikdə 26 qarşılaşmada iştirak edərək, 17 dəfə qapıları dəqiq nişan alıb və 5 qolun ötürməsini verib.



# Fermadan sənədsiz ov tüfəngi, giliz və patronlar tapıldı

Daxili işlər orqanlarının əməkdaşları əllərdə qanunsuz saxlanılan silah-sursatın aşkarlanaraq götürülməsi istiqamətində tədbirləri davam etdirirlər.



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Şəmkir Rayon Polis Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Zəyəm-Cırdaxan kəndi ərazisində kənd sakini M.Zeynalova məxsus fermadan müvafiq sənədləri olmayan "İJ-43" markalı ov tüfəngi, 10 giliz və 5 patron aşkarlanıb. Faktla bağlı təhqiqat davam edir.

# "Neftçi"dən Azərbaycan kubokunda uğursuz seriya...

Bakının "Neftçi" futbol klubu, Azərbaycan kubokunda uğursuz seriyanı davam etdirir. Belə ki, paytaxt təmsilçisi dalbadal iki mövsümdür bu yarışda bir qol belə vura bilməyib. Ümumiyyətlə, "ağ-qaralar" son dəfə kubokda 2018-19 mövsümündə "Sumqayıt"la 1/4 final matçında (1:0) fərqlənib. Buna baxmayaraq, həmin mövsüm "Neftçi" digər matçda "Sumqayıt"a 2:0 hesabı ilə uduzduğundan mərhələ adlaya bilməyib.



Sonrakı iki mövsümdə də komanda mübarizəyə başladığı 1/4 finalda məğlubiyyətlə üzləşib. 2019/20 mövsümündə də onlar "Sumqayıt"ın öhdəsindən gələ bilməyiblər (0:1, 0:0).

Maraqlıdır ki, 2020/21 mövsümündə də "Neftçi" eyni hesablı uğursuzluqla üzləşib. Bu dəfə komanda "Zirə" qarşısında aciz qalıb (0:1, 0:0) və rəqib qapısına bir dəfə də olsun yol tapa bilməyib. Nəticədə hazırda klubun azarkeşləri vaxtında yaxşı hücumçu almadığına görə klubu tənqid edir.

# Düzgün qidalanma orqanizmin immunitetinin möhkəmlənməsinə səbəb olur



İnfeksion xəstəlik olan COVID-19-un bütün dünyada yayıldığı və 2
milyondan çox insanın ölümünə səbəb olduğu bir vaxtda, bütün tibbi
təşkilatlar böyük və ya kiçikliyindən asılı olmayaraq bu xəstəliyin ara-
dan qaldırılması üçün bu işə öz töhfəsini verməlidir. İnfeksion xəstə-
liklərlə mübarizənin ümumiyyətlə bir neçə yolu var. Bunlardan biri və
demək olar ki, ən əsası bu istiqamətdə maarifləndirmə işinin aparıl-
masıdır. İnsanların tibbi maarifləndirmə vasitəsilə savadlanması onla-
rın infeksion xəstəliklərə daha çox yoluxmasının qarşısını əhəmiyyət-
li dərəcədə alır. Maarifləndirmə təcrübədə sınanmış və özünü doğrultmuş vasitədir.

Bunu AZƏRTAC-a "Yoluxucu Xəstəliklərlə Mübarizə" İctimai Birliyinin sədri Fikrət Xəlilov
deyib. İnfeksiyadan qorunmaq üçün ən başlıca şərtin immuniteti gücləndirmək olduğunu de-
yən F.Xəlilov, Tibet həkimlərinin "Dörd tərəfimiz dərmandan ibarətdir" fikrini xatırladıb. "Bu,
həqiqətən də, belədir. Mən öz təcrübəmdə elə insanlar tanıyıram ki, onlar heç vaxt qripə və
bu tip xəstəliklərə qətiyyən yoluxmurlar. Bunun da, əlbəttə, əsaslı səbəbi var. Tibdə həmişə
nəzəriyyə ilə praktika bir-birini tamamlamalıdır. Əgər tamamlamırsa, demək, bu nəzəriyyənin
heç bir əhəmiyyəti yoxdur. Beləliklə, bu praktikadan çıxış edərək bildiririk ki, gündə bir baş
çiy soğan, yaxud bir ədəd limon (qabıqlı halda) və ya bir xörək qaşığı qara qarağat, ya da bir
xörək qaşığı bal yeyən adamlar, demək olar, infeksion xəstəliklərə tu-
tulmurlar. Fikrimizcə, praktikada sübut olunmuş bu kimi üsulların
qəbul edilməsinin xeyri haqqında ölkə əhalisi arasında geniş maa-
rifləndirmə işləri aparılmalıdır. Hesab edirik ki, koronavirusa qarşı
da gücümüz çatan bütün imkanlardan yararlanmaq lazımdır. İnsan
adətən xəstələndikdən sonra bundan qurtulmaq haqqında fikirləşir.
Lakin xəstəliyə tutulmazdan qabaq cansağlığı onu çox da maraqlan-
dırmır. Bunun barəsində isə indiki zamanda düşünməyə dəyər. Axı,
dünyada cansağlığından qiymətli nə var?! Bunun üçün isə düzgün
qidalanma başlıca şərtdir. Düzgün qidalanma, ilk növbədə, orqaniz-
min immunitetinin möhkəmlənməsinə səbəb olur ki, bu da xəstələn-
mə hallarını kəskin surətdə azaldır. İmmuniteti möhkəm olan insan-
larda infeksion xəstəliklərə yoluxma halları, demək olar, müşahidə
olunmur. Bunun üçün müəyyən məhsulların qəbulu vacibdir. Həmin
məhsulların tərkibində bizim əksəriyyətimizin bilmədiyi müəyyən
maddələr var ki, bunlar da orqanizmi müəyyən infeksion xəstəliklər-
dən qoruyur. Bu hal-hazırda çox lazımlı məsələdir və bu istiqamət-
də bir qayda olaraq maarifləndirmə işləri aparılmalıdır", - deyə "Yo-
luxucu Xəstəliklərlə Mübarizə" İctimai Birliyinin sədri Fikrət Xəlilov
bildirib.

# Dəhşət: İstifadə etdiyimiz bu yağ ölümcül təhlükəlidir!



İspaniyalı alimlər sübut ediblər ki, günəbaxan yağından istifadə qaraciyər xəstəliklərinin inkişafına, o cümlədən serroza və onkoloji xəstəliklərə səbəb ola bilər. Ekspertlər bu məhsulu zeytun yağı ilə əvəz etməyi məsləhət görürlər. Qranad universitetinin mütəxəssisləri gəmiricilərin iştirakı ilə seriya laboratoriya təcrübəsi aparıblar. Siçanlara yeməklərinə əlavə kimi zeytun və günəbaxan yağıları təklif ediblər.

Medpress.az saytının yazdığına görə, nəticədə mikrobioloqlar təcrübə altındakı heyvanların qaraciyər genomasının laboratoriya analizini keçiriblər. Günəbaxan yağı sərf edən siçanların qaraciyər hüceyrələrində ultrastruktur dəyişiklik aşkarlanıb ki, bu da qeyri-spirtli steatohepatitlərin inkişafını yüksəldib. Ekspertlər bunu qeyd ediblər: bu zaman yağlı distrofiya xəstəliyi inkişaf edir, iltihab və hüceyrə quruluşuna ziyan dəyir, nəticədə qaraciyərin patoloji dəyişmələri - serroz və onkoloji problemlər baş verir.

Araşdırma göstərib ki, zeytun yağı ilə qidalanan siçanlarda isə qaraciyər sağlam qalıb.

# ŞOK: 25 yaşlı qızı iti parçalayıb yedi!



25 yaşlı qızı it parçalayıb. Milli.Az xarici mətbuata istinadla xəbər verir ki, İngiltərədə yaşayan 25 yaşlı Keira Ladlow it dişləməsi səbəbindən ölüb. O, yuxudaykən itin onu dişləməsi nəticəsində dünyasını dəyişib. Olay Birmingem şəhərində yaşanıb. Hadisə yerinə təcili yardım işçiləri gəlsə də, qızın həyatını xilas etmək mümkün olmayıb. Onun rəfiqələri bildirib ki, qız itləri çox sevirdi və həyat dolu biri idi.

***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**

**"Azərbaycan" nəşriyyatında çap olunur**

***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**